

"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

**Azərbaycana böyük uğurlar gətirən LİDER**



8

SƏS

№ 176 (7101)

26 sentyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Prezident İlham Əliyevə çoxməqsədli JF-17C təyyarələri təqdim olunub



2

# Qərbdən BRICS-ə strateji keçid

*Bu, Türkiyənin Qərbdən narazılığını əks etdirir*




5

## Tariximizə qızıl hərflərlə yazılmış böyük əmrin kiçik tarixçəsi




9

## Əlaqələndirmə Qərargahının növbəti iclası Kəlbəcər şəhərində keçirilib



4

## "Kamala Harrisin Qərbi azərbaycanlıların qayıdış hüququnu görməzdən gəlməsi sülhə kömək etmir və yanlışdır"

BƏYANAT

Qərbi Azərbaycan İcması
Western Azerbaijan Community

2

## Bir ailənin faciəsi: Xədicə komaya necə düşdü?



10

## Yurduna qayıdan köçkün UNİVERSİTET




11

# Prezident İlham Əliyevə çoxməqsədli JF-17C təyyarələri təqdim olunub

***Sentyabrın 25-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngülçəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli çoxməqsədli JF-17C (Block-III) təyyarələri təqdim olunub.***

AZƏRTAC xəbər verir ki, bu təyyarələr artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi. Azərbaycanın müdafiə naziri və Pakistan Aviasiya Kompleksinin sədri vitse-marşal Hakim Raza dövlətimizin başçısına təyyarələrin taktiki-texniki xüsusiyyətləri, istismar qaydaları və digər göstəriciləri barədə məlumat verdilər. Bildirildi ki, JF-17C (Block-III) birmühərrikli çoxməqsədli döyüş təyyarəsidir. Təyyarə hava-hava və hava-yer döyüş qabiliyyətinə, eləcə də orta və aşağı hündürlüklərdə yüksək döyüş manevrinə malikdir, effektiv atəş gücünə görə seçilir.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda ordu quruculuğu geniş vüsət alıb. Xüsusilə Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub, Silahlı Qüvvələrimizin müasir dövrün çağırışları əsasında komplektləşdirilməsi işləri uğurla davam etdirilir. Dövlətimizin başçısının tapşırığı ilə yeni ordu birləşmələri və qoşun növləri yaradılır, şəxsi heyətin döyüş hazırlığı yüksəldilir. Eyni zamanda, Ordumuzun hərbi-texniki təchizatı məsələsi Ali Baş Komandanın xüsusi diqqət mərkəzindədir. Yeddinci çağırış Milli Məclisin ilk iclasındakı nitqində hərbi gücümüzün artırılmasının bir nömrəli vəzifə olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir".

Milli müdafiə sənayemizin inkişaf etdirilməsi, eyni zamanda, xarici ölkələrlə hərbi sahədə əməkdaşlıq, yeni müqavilələrin imzalanması da xüsusi vurğulanmalıdır. Azərbaycanın müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlıq etdiyi ölkələrdən biri də qardaş Pakistandır. Prezident İlham Əliyevin bu ilin iyulunda Pakistana dövlət səfəri iki ölkə arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə yeni təkan verib. Azərbaycan və Pakistan beynəlxalq platformalarda daim bir-birinə qarşılıqlı dəstək göstərir və həmrəylik nümayiş etdirirlər.











## "Kamala Harrisin Qərbi azərbaycanlıların qayıdış hüququnu görməzdən gəlməsi sülhə kömək etmir və yanlışdır"

## BƏYANAT

**ABŞ-ın vitse-prezidenti Kamala Harris prezidentliyə namizəd qismində, Amerikanın erməni icmasına ünvanladığı müraciətdə "Dağlıq Qarabağ"dan olan ermənilərin qayıtmaq hüququna istinad edib. İlk növbədə, qeyd edək ki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı bölgə yoxdur. Separatçılıq və işğalla assosiasiya olunan bu terminin işlədilməsi Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir. AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.**

"Bundan əlavə, ABŞ vitse-prezidentinin qayıdış hüququna yalnız etnik ermənilər üçün istinad etməsi ayrı-seçkilik xarakteri daşıyır. Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququ ədalətin və davamlı sülhün bərqərar olunması üçün zəruri şərtdir. Vitse-prezidentin Qərbi azərbaycanlıların qayıdış hüququnu görməzdən gəlməsi sülhə kömək etmir və yanlışdır.

Biz vitse-prezident Harrisə müraciət edərək, onu Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq hüququna hörmət etməyə və qayıdış hüququ məsələsində etnik və ya dini mənsubiyyətə əsaslanan ayrı-seçkiliyə yol verməməyə çağırırıq", - deyə bəyanatda qeyd edilib.

# Azərbaycanın müdafiə sənayesinin güc və qüdrətinin nümayişi

## İlham Əliyev: "Bu gün Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir"

Azərbaycan regionda müdafiə sənayesinə həsr olunmuş ən nəhəng tədbir olan "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisinə ev sahibliyi edir. Sərgi 5-ci yubileyini qeyd edir. Beynəlxalq tədbirlər məkanı olan Azərbaycan təhlükəsiz və əmin-amanlıq şəraitində beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkilinə nail olur. Azərbaycan Prezidenti İlham Əliyevin "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisinin iştirakçılarına ünvanladığı müraciətində bildirdiyi kimi, "Ölkəmiz mötəbər beynəlxalq tədbirləri yüksək səviyyədə və böyük peşəkarlıqla təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirmişdir. Azərbaycanın belə genişmiqyaslı və son dərəcə əhəmiyyətli tədbirləri keçirmək üçün müasir infrastruktura malik və təhlükəsizlik baxımından sabit ölkə olması dünya ictimaiyyəti tərəfindən hər zaman müsbət qiymətləndirilir. Bu il ölkəmizdə baş tutacaq dünyanın qlobal xarakterli mötəbər beynəlxalq tədbirlərindən sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 da bunun bariz nümunəsidir. Əminliklə söyləmək olar ki, artıq beşinci dəfədir təşkil olunan "ADEX" sərgisi əvvəlki illərdəki kimi yenə də yüksək səviyyədə keçiriləcəkdir."

"ADEX" sərgisi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Tədbiri müxtəlif ölkələrin yüksək rütbəli şəxsləri ziyarət edir. Həmişə olduğu kimi, bu dəfə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "ADEX" və "Securex Caspian" sərgiləri ilə tanış olub. Prezident İlham Əliyevin "ADEX" sərgisinə göstərdiyi diqqət və ənənəvi olaraq şəxsi iştirakı tədbirin beynəlxalq müstəvidə və ölkə daxilində strateji əhəmiyyətini nümayiş etdirir və nüfuzunun artmasına böyük təkan verir. Xatırladaq ki, ilk "ADEX" sərgisi 2014-cü ildə keçirilib. İki ildən bir keçirilən sərgi bu il 5 illik yubileyini qeyd etsə də, artıq 10 ildir fəaliyyət göstərir və ildən-ilə iştirakçı siyahısını və əhatə etdiyi sektorları genişləndirir. Sərgi 10 illik uğurlu fəaliyyəti ərzində dünyanın 50-dən artıq ölkəsini təmsil edən çoxsaylı şirkətləri və 200-ə yaxın rəsmi nümayəndə heyətini bir araya gətirib. Bu illər ərzində sərgini 30 mindən çox qonaq ziyarət edib.

Beşinci dəfə təşkil olunan "ADEX" Azərbaycanda və regionda müdafiə sənayesi və təhlükəsizlik sahəsində mühüm hadisədir. Bu genişmiqyaslı tədbir regionda ən böyük hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin nümayişidir. "ADEX" sərgisi qabaqcıl texnologiyaların təqdimatı, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və ölkənin müdafiə sənayesinin inkişafı üçün səmərəli platforma rolunu oynayır.

"ADEX" dünyanın tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında da mühüm rol oynayır. "ADEX" dost və müttəfiq ölkələrin tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında unikal rol oynayır. Bu sərgi dünya silah bazarında ixraca təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq, beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələr imzalamaq üçün geniş imkanlar yaradır", - deyə Prezident bildirib.

Bu il yubiley sərgisində daha çox - dünyanın 40-a yaxın ölkəsindən 218-dən artıq şirkət iştirak edir. "ADEX" müdafiə sərgisinin iştirakçıları arasında Amerika Birləşmiş Ştatları, Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorlarının aparıcı şirkətləri var. Macarıstan, Rumıniya və Sinqapurdan olan şirkətlər sərgiyə ilk dəfə qatılıb. Bu il 12 ölkə sərgidə milli stendləri ilə iştirak edir. İtaliya, Macarıstan, Qətər Dövləti və Slovakiya ilk dəfə milli stendlərlə iştirak edirlər. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini böyüdüblər.



### TÜRKİYƏNİN MÜDAFİƏ SƏNAYESİNİ TƏMSİL EDƏN ŞİRKƏTLƏR

"Tədbirdə dünyaca məşhur yüzlərlə şirkət öz məhsullarını nümayiş etdirir", - deyən Prezident bildirib ki, "ADEX" müxtəlif ölkələrin öz müdafiə və müdafiə sənayesi sahələrini gücləndirmələri, istehsal imkanlarını artırmaları, müasir və innovativ vasitələri tətbiq etmələri və təcrübə mübadiləsi aparmaları baxımından önəmli tədbirdir.

Qardaş Türkiyə sərgidə ən çox şirkətlərlə təmsil olunan ölkələrdən biridir. Bu şirkətlərdən biri olan "Roketsan" 1988-ci ildə qurulub. Şirkət müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr, alqoritm və proqram təminatını hazırlayır və istehsal edir, onları quru, hava və dəniz platformaları ilə birləşdirir. Eyni zamanda, şirkət bu sistemlərə maddi-texniki dəstək verir, raket yanacağı istehsal edir, ballistik mühafizə layihələri hazırlayır və həyata keçirir, eləcə də öz müəssisələrində kosmik raketləri işləyib hazırlayır.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "Baykar"dır. 1986-cı ildən fəaliyyət göstərən "Baykar" şirkəti ölkədə ilk yerli PUA sistemlərini istehsal edərək müdafiə və aviasiya sənayesində inqilab yaradıb. Şirkət sərgidə "Akıncı" adlı PUA, "Bayraktar TB2" və "Bayraktar KALKAN" məhsullarını təqdim edib.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "Turkish Aerospace"dir. "Turkish Aerospace" sabit və hərəkətli hava platformalarından pilotsuz uçuş aparatı və peyklərə qədər inteqrasiya olunmuş aerokosmik sistemlərin dizaynı, işlənib hazırlanması, müasirləşdirilməsi, istehsalı, inteqrasiyası və istifadəsinə dəstək sahəsində Türkiyənin texnologiya mərkəzidir. Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "REPKON"dur. Şirkət təzyiq ilə metal emalı sektoru üçün tam "açar təslim" istehsal qurğularının tədarükçüsü və qlobal bazar üçün metal emalı maşınlarının inkişaf etdiricisi və istehsalçısıdır. Sərgidə Birləşmiş Ərəb Əmirliklərinin, İsrailin,Rusiya Federasiyasının, Slovakiyanın və digər ölkələrin stendləri maraq doğurub.

### ƏN BÖYÜK SƏNAYE MƏHSULLARI İSTEHSAL EDƏN MƏRKƏZLƏRDƏN BİRİ - STP

Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzinin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxıb. "Azərsilah" QSC tərəfindən sərginin açıq havada nəzərdə tutulmuş ərazisində zirehli maşınlar, kəşfiyyat və kamikadze dronları, o cümlədən PUA-lar nümayiş etdirilir. Sumqayıt Texnologiyalar Parkı (STP) da sərgidə fəal iştirak edir. STP regionda ərazisinə görə ən böyük sənaye məhsulları istehsal edən mərkəzlərdən biridir. Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan STP 30-dan artıq istehsal sahəsi ilə öz sektorunun lideridir. Sərgidə şirkət tərəfindən silah və sursat, hava bombaları və hava raketləri, simulyatorlar və təlim sistemləri ilə yanaşı, yerüstü hərbi təlim avadanlıqları da nümayiş olunur.

"ADEX" və "Securex Caspian" sərgiləri iştirakçılar, ziyarətçilər və müxtəlif ölkələrdən gələn ekspertlər arasında təcrübə mübadiləsi aparmaq, həmçinin məhsulların regional müdafiə sənayesi bazarının tələblərinə uyğun olaraq modernləşdirilməsinə şərait yaratmaq baxımından olduqca mühüm əhəmiyyət daşıyır. Builki sərgilərin əvvəlkilərdən fərqi daha çox ölkədən şirkət və nümayəndə heyətinin qatılmasıdır. İştirakçı ölkələrin sayının getdikcə artması isə bu sərgilərin bir çox dövlətin hərbi-sənaye müəssisələrinin diqqətini cəlb edən tədbir olduğunu təsdiqləyir.

### "ÖLKƏMİZİN MÜDAFİƏ SƏNAYESİ ÇOX SÜRƏTLƏ İNKİŞAF EDİR"

Qeyd edək ki, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsinə dövlət tərəfindən xüsusi diqqət yetirilir və bu sahələrə aid xərclər dövlət büdcəsinin əsas prioritet xərci olaraq qalmaqdadır. 2022-ci ildə müdafiə və milli təhlükəsizlik xərcləri üçün dövlət büdcəsindən 5 milyard manatdan çox vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində isə bu istiqamətdə olan xərclər üçün 5,3 milyard vəsait təsdiq olunub. Bu da ötən illə müqayisədə 200 milyon manat, 2021-ci illə müqayisədə isə 17,1 faiz çoxdur. "Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi məsələlərinə dövlət tərəfindən xüsusi diqqət yetirilir və bu sahələrin daha da inkişafı prioritet istiqamətlərdəndir. Son illərdə ölkəmizin müdafiə sənayesi çox sürətlə inkişaf edir. Mövcud istehsal sahələrinin müasir standartlara uyğun təkmilləşdirilməsi ilə yanaşı, yeni istehsal sahələrinin yaradılması üzrə işlər uğurla həyata keçirilir", - deyə Prezident qeyd edib ki, düzgün aparılmış islahatlar nəticəsində ölkəmizdə istehsal edilən müdafiə təyinatlı məhsulların çeşidi artırılmışdır və bu gün Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Həm Azərbaycanın Silahlı Qüvvələri müasir silah növləri ilə təchiz edilir, həm də dünya ölkələrinin müdafiə sənayesi şirkətləri istehsal etdiyimiz məhsullarla yaxından maraqlanırlar: "Bir çox dost və müttəfiq dövlətlərlə müdafiə sənayesi sahəsində yeni əməkdaşlıqlar qurulur, mövcud əlaqələr uğurla davam etdirilir. Azərbaycan müdafiə sənayesi sahəsində dinamik inkişafa nail olmaqla hərbi-texniki imkanlarını genişləndirir".

### MİLLİ TƏHLÜKƏSİZLİK MƏHSULLARININ TƏQDİM EDİLMƏSİ ÜÇÜN İDEAL PLATFORMA

"ADEX" sərgisi Azərbaycan Respublikasının və dünya şirkətlərinin hərbi-sənaye komplekslərinin gücü və qüdrətinin genişmiqyaslı nümayişi, hərbi-texniki sahədə yerli və xarici ekspertlər arasında konstruktiv ünsiyyət, təcrübə mübadiləsi və səmərəli əlaqələrin qurulmasına şərait yaradır. Tədbiri ziyarət edən peşəkarlar müxtəlif ölkələri təmsil edən şirkətlərin təqdim etdiyi müdafiə kompleksindəki yeniliklərlə, həmçinin Azərbaycanın güc strukturlarının satınalma potensialı ilə tanış olurlar.

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərimizin işğaldan azad edilməsində müstəsna rol oynamış Azərbaycan hərbi sənaye kompleksinin gücü və qüdrəti, ölkəmizdə istehsal olunan müasir silahlar da "ADEX" sərgisi çərçivəsində nümayiş olunur. Təsadüfi deyil ki, istər 44 günlük Vətən müharibəsi, istərsə də lokal xarakterli antiterror əməliyyatları zamanı Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində bu gün diqqətlə öyrənilir".

Bu sərgi dəniz, hava və quru qoşunları üçün nəzərdə tutulmuş məhsulların, eləcə də milli təhlükəsizlik məhsullarının təqdim edilməsi üçün ideal platformadır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Əlaqələndirmə Qərargahının növbəti iclası Kəlbəcər şəhərində keçirilib



***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası Kəlbəcər şəhərində keçirilib. AZƏRTAC xəbər verir ki, Qərargahın rəhbəri sentyabr ayında Azərbaycan tarixində xüsusi əhəmiyyətli bir sıra hadisələrin baş verdiyini vurğulayaraq, bir il əvvəl sentyabrın 19-20-də Qarabağda həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində ölkəmizin dövlət suverenliyinin tam bərpa edildiyini bildirib. Qeyd olunub ki, bu tarixi günün ildönümü ərəfəsində dövlətimizin başçısı tərəfindən sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi təsis edilib.***



İclasda Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş bütün şəhidlərin əziz xatirəsi dərin hörmətlə yad edilərək, 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin Zəfərlə nəticələnməsinin uzaq keçmişdən davam edən ədalətsiz tarixi prosesə son qoyduğu və torpaqlarımıza əsl sahiblərinin əbədi qaytarılmasına yol açdığı iştirakçıların diqqətinə çatdırılıb.

Qərargahın rəhbəri bildirib ki, bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş bütün ərazilər böyük quruculuq və bərpa dövrünü yaşayır. Dövlətimizin başçısının təsdiqlədiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən işğaldan azad edilmiş ərazilərin hərtərəfli inkişafına nail olmaq məqsədilə bütün prioritet istiqamətlər üzrə çoxşaxəli işlər görülür.

İşğaldan azad edilmiş ərazilərdə müasir və səmərəli istehsal, ticarət və xidmət infrastrukturlarının yaradılması, sənaye potensialının reallaşdırılması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində bir sıra tədbirlərin, o cümlədən investisiya layihələrinin maliyyələşdirilməsinin, sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin olunmasının və kredit faizlərinin subsidiyalaşdırılmasının həyata keçirildiyi bildirilib. Qeyd olunub ki, cəmi 3 il ərzində Ağdam Sənaye Parkı rezident sayına görə ölkə sənaye parkları arasında ikinci yerdə qərarlaşıb.

Bununla yanaşı, dayanıqlı məskunlaşmanın təmin olunması üçün keçmiş məcburi köçkünlərin məşğulluq məsələlərinin kompleks şəkildə həlli və onların davamlı iqtisadi fəallığının təmin edilməsi məsələlərinə xüsusi diqqət yetirildiyi bildirilib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası, əhalinin məşğulluğunun və dayanıqlı məskunlaşmasının təmin edilməsi, ərazilərdə nəqliyyat infrastrukturunun qurulması, habelə bölgədə turizmin bərpası və inkişafı sahələri üzrə görülən işlər barədə məruzələr dinlənilib. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Kəlbəcər rayonunda xüsusi nümayəndəliyi tərəfindən görülən və planlaşdırılan işlər barədə məlumatlar təqdim edilib.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən Əlaqələndirmə Qərargahı qarşısında qoyulan vəzifələrin icrasından irəli gələrək müvafiq tapşırıqlar verilib. Səfər çərçivəsində Kəlbəcər rayonunun ərazisində görülmüş müvafiq işlərlə tanışlıq olub və bir sıra obyektlərə baxış həyata keçirilib.

# Azərbaycan ilə AEBA arasında texniki əməkdaşlığı nəzərdə tutan "Ölkə üzrə Çərçivə Proqramı" imzalanıb

***Sentyabrın 25-də BMT Baş Assambleyasının 79-cu sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) baş direktoru Rafael Qrossi ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, tərəflər Azərbaycanla AEBA arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edərək, hazırkı birgə layihələr və perspektivlər ətrafında fikir mübadiləsi aparıblar.***




Nazir Ceyhun Bayramov Azərbaycanın nüvə təhlükəsizliyinin qorunmasına və daha da möhkəmləndirilməsinə böyük əhəmiyyət verdiyini və bu xüsusda beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində səyləri dəstəklədiyini bildirib.

Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin nüvə təhlükəsizliyi qaydaları və standartlarının işlənib hazırlanmasında əsas rol oynadığı qeyd edilib, habelə nüvə təhlükəsizliyi və nüvə enerjisinin dinc məqsədlər naminə istifadəsində AEBA-nın vacib roluna vurğu edilib. AEBA-nın texniki əməkdaşlıq fəaliyyəti, xüsusilə də son illər ərzində kənd təsərrüfatı, tibb, neftkimya və ətraf mühit sahələrində Azərbaycanla Agentlik arasında əlaqələrin praktiki əhəmiyyəti qeyd edilib.

Görüş zamanı Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi çərçivəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib. Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Eyni zamanda, tərəflər arasında Azərbaycan Respublikası ilə texniki əməkdaşlığı nəzərdə tutan 2024-2029-cu illər üzrə "Ölkə üzrə Çərçivə Proqramı"nın imzalanma mərasimi keçirilib.

# Qərbdən BRICS-ə strateji keçid

## Bu, Türkiyənin Qərbdən narazılığını əks etdirir

***Türkiyənin BRİCS-ə üzv olmaq üçün müraciət etməsi Ərdoğanın Qərbdən narazılığını əks etdirir. Ekspertlərin fikrincə, Ankara qeyri-qərb dövlətləri ilə münasibətləri gücləndirməyə yönəlmiş strategiya seçib, ABŞ hegemonluğu isə zəifləyir. Türkiyənin BRİCS-ə üzv olmaq istəyi Ərdoğanın Qərbdən narazılığını əks etdirir. Prezident Rusiya və Çin kimi qeyri-qərb gücləri ilə əlaqələri gücləndirməyə çalışır. Sentyabrın 2-də məlum olub ki, Türkiyə BRİCS-ə üzv olmaq üçün rəsmi ərizə verən ilk və yeganə NATO üzvü olub. Rusiya, Çin, Braziliya, Hindistan və Cənubi Afrikanın liderlik etdiyi BRİCS-də Rusiya və Çin prezidentləri Vladimir Putin və Si Cinpin üstünlük təşkil edir. Keçmiş türk diplomatlarından biri Newsweek-ə bildirib ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın istəyi Qərbdə və Avropa Birliyində yığılmış ”məyusluq”la diktə edilib.***

İstanbulda fəaliyyət göstərən EDAM analitik mərkəzinin rəhbəri Sinan Ülgen isə deyib ki, bu, Ankaranın Qərbi əvəz etmək strategiyası deyil, ABŞ-ın hegemonluğunun zəiflədiyi bir vaxtda qeyri-Qərb gücləri ilə münasibətləri gücləndirmək strategiyasıdır. Qurucu ölkələrin - Braziliya, Rusiya, Hindistan və Çin adlarının ilk hərflərindən yaranmış BRIC idi. Qurum əvvəlcə sürətlə inkişaf edən iqtisadiyyatlar üçün investisiya imkanları tapmaqla məşğul idi. BRIC-in ilk sammiti 2006-cı ildə baş tutub və təşkilat tezliklə rəsmi geosiyasi bloka çevrilib.

2010-cu ildə Cənubi Afrika BRIC-ə qoşuldu, bundan sonra qrup BRICS adını daşımağa başladı. Bu blok ABŞ, Böyük Britaniya, Kanada, Fransa, Almaniya, İtaliya və Yaponiyanın daxil olduğu yeddi aparıcı iqtisadi inkişaf etmiş ölkənin qeyri-rəsmi birliyi olan G7-yə qlobal alternativ kimi qiymətləndirilir. Avropa İttifaqı ”siyahıya daxil olmayan üzvdür”. 2023-cü ilin avqustunda Yohannesburqda keçirilən BRİCS sammitində








altı ölkə təşkilata üzv olmaq üçün dəvət aldı: Argentina, Misir, Efiopiya, İran, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ). Bu, BRİCS-in qlobal iqtisadi səhnədə G7-nin üstünlüyünə meydan oxumaq və inkişaf etməkdə olan iqtisadiyyatlarla əlaqələri gücləndirmək istəyini əks etdirir.

Argentina yeganə ölkədir ki, BRİCS-ə üzv olmaq dəvətini rəsmən rədd edib. Səudiyyə Ərəbistanı hələ də tərəddüd edir və nə vaxtsa bu dəvəti qəbul edə bilər, lakin hələlik BRİCS-in fəaliyyətlərində dəvət olunmuş ölkə kimi iştirak edir. Qalan dörd dövlət 2024-cü il yanvarın 1-də təşkilata qoşulub. BRİCS Yer səthinin təxminən 30%-ni və planet əhalisinin 45%-ni təşkil edir. BRİCS-ə qoşulmaq nəhayət, ən problemli üzv olan Türkiyə ilə NATO arasında münasibətləri poza bilər. Türkiyə NATO-nun şərq cinahını Sovet təcavüzündən qorumağa kömək edəcəyi ümidi ilə 1952-ci ildə, Soyuq Müharibənin ən qızğın çağında alyansa qəbul edilib. Yarısı Avropada, yarısı Asiyada olan bu ölkə tez-tez NATO siyasətləri ilə razılaşmayıb. Amma Ərdoğan hakimiyyətə gələndən - əvvəl baş nazir, sonra isə prezident kimi - Türkiyə ardıcıl olaraq Qərbin hədəflərinə zidd olan taktiki və xarici siyasət məqsədləri həyata keçirib.

Türkiyənin NATO-dakı yerinin strateji səbəblərdən etibarlı olduğuna əmin olan Ərdoğan inadla öz məqsədlərinə nail oldu. Türkiyə, həmçinin Ərdoğanın terrorçu hesab etdiyi kürd qüvvələrinə verdiyi dəstəyə görə Suriyada ABŞ-a daim meydan oxuyur. Daha sonra Ərdoğan Rusiyanın S-400 zenit-raket komplekslərinin tədarükü ilə bağlı müqavilənin imzalandığını elan edəndə Amerikanın beşinci nəsil F-35 gizli qırıcılarının alınması ilə fiasko yaşandı. Amerikanın sərt etirazlarına və sanksiya təhlükəsinə baxmayaraq, Türkiyə Rusiyadan zenit-raket kompleksinin ilk partiyasını 2018-ci ilin iyulunda alıb. Bu, ABŞ-la F-35-lə bağlı razılaşmanı qeyri-mümkün edib. S-400 xüsusi olaraq F-35 kimi gizli qırıcılarla mübarizə üçün nəzərdə tutulub. Ankara hər ikisini əldə etsə, o zaman Türkiyədə S-400 müqaviləsini müşayiət edən rusiyalı mütəxəssislər Amerika qırıcılarının qabaqcıl texnologiyaları ilə tanış ola biləcəkdilər. Buna görə də Ərdoğanın Rusiyadan S-400 raket sistemlərini almaqda israrlı olduğu aydınlaşdıqda, Vaşinqton F-35 müqaviləsini ləğv etdi.

Türkiyənin S-400 alması Rusiyanın Yaxın Şərqdə təsirinin artması ilə nəticələndi. Hər bir sonrakı NATO əməliyyatı Türkiyədə rus komplekslərinin olmasını nəzərə almalı idi - bu, Putinin çox xoşuna gələn Qərb alyansına dağıdıcı təsir göstərdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 1 dekabr 2023-cü il, cümə günü Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin COP28 İqlim Sammitinin plenar iclasında çıxış etdi. Putin Türkiyənin BRİCS-ə qoşulmaq təklifinə sevinməyə bilməzdi. Ərdoğan hesab edir ki, BRİCS üzvlüyünün əlavə məhsulu onun son diplomatik səylərinin - İsraili qeyri-qanuniləşdirməyə və sabitliyi pozmağa yönəlmiş yeni İslam alyansının yaradılmasının təsdiqi olacaq. Aydındır ki, 2022-ci ilin aprelində İsrailə qarşı ”cazibədar hücum” sadəcə maskalanma idi. Həmin vaxt onun ABŞ-la münasibətlərini yaxşılaşdırmağa ciddi ehtiyacı var idi.

### ”İsrail ekspansionizminə qarşı həmrəylik”

Sentyabrın 7-də İstanbulda çıxış edən Ərdoğan deyib: ”İsrailin təkəbbürünü, quldurluğunu və terrorunu dayandıra biləcək yeganə addım İslam ölkələrinin ittifaqıdır”. O, Türkiyənin Misir və Suriya ilə bağlı atdığı yeni addımların ”artan ekspansionizm təhlükəsinə qarşı həmrəylik xətti” formalaşdırmaq məqsədi daşıdığını vurğulayıb. Misir, təbii ki, artıq BRİCS-in üzvüdür. Onlarla ölkə BRİCS-ə qoşulmaqda maraqlı olduğunu bildirib.

*Ardı Səh. 6*

Əvvəli səh. 5

# Qərbdən BRICS-ə strateji keçid

*Bu, Türkiyənin Qərbdən narazılığını əks etdirir*

Onların arasında Əlcəzair, Banqladeş, İndoneziya, Nigeriya və Pakistan kimi Türkiyənin çağırdığı anti-İsrail ittifaqının bir çox potensial tərəfdarları var.

Ərdoğanın İsrailin "ekspansionizmindən" qorxması, ehtimal ki, dörd ərəb ölkəsinin ilk şərt olaraq Fələstin dövlətinin yaradılmasını tələb etmədən İsraillə münasibətləri normallaşdırdığı bir sıra müqavilələr seriyası olan İbrahim razılaşmaları ilə bağlıdır. BƏƏ də onlardan biridir. İsraillə münasibətləri normallaşdırmaq üçün ABŞ-la danışıqlar aparan Səudiyyə Ərəbistanı 2024-cü il yanvarın 1-dən BRİCS-ə üzv olmağa dəvət olunub. O, hələ rəsmi olaraq bu təşkilata qoşulmayıb və hələ də düşünür. Ərdoğan Qərbi Həmas ilə 2023-cü il oktyabrın 7-də başlayan münaqişədə İsraili dəstəklədiyinə görə tənqid edir. Sonradan bir çox Qərb ölkələrinin İsrailin Qəzza zolağındakı hərbi əməliyyatlarını pisləməsi onu sakitləşdirməyib. Ərdoğan həmçinin İsraili bir sıra peycer və telsiz bombalarından sonra Qəzzadakı müharibəni Livana yaymaqda ittiham edib.

Türkiyə Rusiyanın Ukraynada keçirdiyi xüsusi hərbi əməliyyata birmənalı yanaşmır. Lakin NATO-nun digər üzvlərindən fərqli olaraq, Kremlə qarşı sanksiyalar tətbiq etməyib. Ərdoğan Moskvanı qıcıqlandırmaq əvəzinə, Rusiya ilə Ukrayna arasında vasitəçi kimi çıxış etməyə hazır olduğunu bildirir. O, həmçinin Qara dəniz limanlarından Ukrayna taxılının çıxarılmasına və Soyuq Müharibədən bəri Moskva ilə Vaşinqton arasında ən böyük məhbus mübadiləsinə vasitəçilik edib. "Türkiyə Şərq və Qərblə münasibətlərini eyni zamanda yaxşılaşdırsa, güclü, firavan, prestijli və təsirli ölkəyə çevrilə bilər. İstənilən başqa yanaşma Türkiyəyə xeyir verməyəcək, ancaq zərər verəcək", - Ərdoğan sentyabrın 1-də deyib: "Bəzilərinin iddia etdiyi kimi, bizim Avropa İttifaqı və Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) arasında seçim etmək lazım deyil, əksinə, həm bu təşkilatlarla, həm də digər təşkilatlarla münasibətlərimizi qarşılıqlı faydalı əsasda inkişaf etdirməliyik".








## İstanbulda danışıqlarda "lobbi" barmağı

Prezident Ərdoğanın sözlərinə görə, İstanbulda Ukrayna ilə bağlı danışıqların uğursuz nəticələnməsində əsas günahı "lobbilər"də axtarmaq lazımdır. Buna baxmayaraq, Türkiyə münaqişənin daha da dağıntılara səbəb olmaması üçün mümkün qədər tez bir zamanda sona çatdırmaq üçün əlindən gələni etməyə davam edəcək. Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 79-cu sessiyasında iştirak etmək üçün Nyu-Yorka səfər edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-da fəaliyyət göstərən bəzi beyin mərkəzlərinin nümayəndələri ilə dəyirmi masada çıxış edib.

Prezident Ərdoğan beynəlxalq beyin mərkəzlərinin aparıcı nümayəndələri ilə görüşməkdən məmnun olduğunu, qlobal və regional hadisələrə, eləcə də Türkiyənin xarici siyasəti nöqteyi-nəzərindən çağırışlara qısa nəzər salmaq istədiyini bildirib. O qeyd edib ki, Türkiyənin əsas prinsipləri dostluğu gücləndirmək, fikir ayrılıqlarını azaltmaq və sülhü təmin etməkdir. Onun sözlərinə görə, Ankara beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsini əvəzsiz şərt hesab edir və müasir dünyada bu prinsiplərə hər zamankından daha çox ehtiyac var.

Ərdoğanın sözlərinə görə, qlobal çağırışlar, onlarla mübarizədə çətinliklər və qeyri-müəyyənliklər, regional münaqişələr və humanitar böhranlar göz qabağındadır. Deməli ki, hər gün yeni böhranlar və yeni münaqişələrlə üzləşirik. Türkiyə lideri qlobal sistemin, xüsusilə də BMT-nin daha ədalətli və təmsilçi olmasına ehtiyac olduğunu da vurğulayıb. "Hər dəfə böhran vəziyyətində acı həqiqətin şahidinə çevrilirik. Bir yanda insanlığın ümumi ağlını və vicdanını, qərarlarını əks etdirən BMT Baş Assambleyası var. Digər tərəfdən 5 imtiyazlı ölkə var. Təhlükəsizlik Şurasında qəbul edilən hər bir qərara veto qoymaq hüququna malik olan beş ölkə uzun illər həll olunmamış qalmağa məhkum olan hər bir problemdə öz özbaşınalıqlarına, öz maraqlarına və maraqlarına əsaslanaraq, Baş Assambleyada yüzlərlə dövlətin iradəsinə məhəl qoymur. Mən "beşdən böyük dünya" dedikdə, hər kəs BMT-nin islahatlara ehtiyacı olduğunu qəbul edir, lakin getdikcə disfunksiyalı olan BMT sisteminin yükü buna meyl göstərir. Münaqişə bölgələrindəki mülki vətəndaşlar və aclıqla mübarizə aparan məzlumlar, yəni ən çox bu islahat üçün hər yerdə və hər fürsətdə çağırış etməyə davam edəcəyik" deyən Ərdoğan həmçinin qeyd edib ki, bu mövzu onun Gələcək Sammit proqramındakı çıxışının əsasını təşkil edəcək.

## Yaxın Şərq narahatlığı

Türkiyə prezidenti xatırladıb ki, ötən il oktyabrın 7-dən ölkəsi Qəzza zolağında baş verən qətliamları ürək ağrısı ilə izləyir. Ərdoğan deyib ki, İsrailin hücumları nəticəsində həlak olan 41 mindən çox Qəzzalı mülki vətəndaşın üçdə ikisi qadın və uşaqlardır. "Qəzzada sözün tam mənasında humanitar fəlakət var", - deyən Türkiyə prezidenti, "Qəzzada 1,9 milyon insan su ehtiyatlarının 70 faizini, tibb müəssisələrinin 75 faizini itirib, 150 min yaşayış binası qismən və ya tamamilə dağılıb, 200 mini qismən dağılıb, hepatit, poliomielit, dizenteriya kimi xəstəliklər dəhşətli həddə çatıb".

Rəcəb Tayyib Ərdoğan insanların təcili ehtiyac duyduğu yardımın yalnız dörddə birinin Qəzzaya girməsinə icazə verildiyini vurğulayıb. Onlar yerli əhalini təkcə bombalarla deyil, aclıq, dərman və su çatışmazlığı ilə də məhv etməyə çalışırlar. İndi prioritet dayanıqlı atəşkəs və maneəsiz humanitar yardım axınını təmin etməkdir: "İsrail hökuməti müharibəni regionda genişləndirmək üçün hər cür imkandan istifadə etməyə çalışır beynəlxalq ictimaiyyət İsrailə təzyiqi artırır".

## "Mübarizə bütün regionun təhlükəsizliyi naminə aparılır"

Türkiyə lideri qeyd edib ki, Rusiya-Ukrayna münaqişəsi bütün dünyanın gözü qarşısında böyük humanitar faciəyə çevrilib. "Biz hərbi əməliyyatların əvvəlindən ədalətli sülhə nail olmaq üçün səylər göstərmişik və edirik" deyə xatırladıb: "İstanbulda aparılan danışıqlar Türkiyənin aktiv rolunun uğurunu təsdiqlədi, lakin bəzi lobbilər bu səylərin öz məqsədlərinə çatmasını istəmədilər. Hər halda, biz "hərbi münaqişənin daha da böyük dağıntılara səbəb olmadan başa çatması üçün mümkün olan hər şeyi edirik və edəcəyik".

Ərdoğan xatırladıb ki, Azərbaycan və Ermənistanla birlikdə Cənubi Qafqazda daimi sülh və sabitliyin hökm sürməsi imkanı əldə edilib. Balkanlarda konstruktiv diplomatiya və Yaxın Şərqə sülh və sabitlik gətirmək təşəbbüsləri vasitəsilə Türkiyə regional rolunu gücləndirib. "Qonşularımızın - Suriya və İraqın ərazi bütövlüyünü dəstəkləməklə yanaşı, bu iki dövlətin ərazisindən ölkəmizə gələn hər cür təhdidlərə qarşı qətiyyətlə mübarizə aparırıq. Bizim mübarizəmiz Kürdüstan Fəhlə Partiyası (PKK) kimi terror təşkilatlarına qarşıdır. , Demokratik Birlik Partiyası (PYD), Xalq Müdafiə Birlikləri (YPG), İŞİD, Fətullahçı Terror Təşkilatı (FETÖ) təkcə Türkiyənin deyil, bütün regionun təhlükəsizliyini təmin etməyi qarşısına məqsəd qoyub".

## "Türkiyə NATO-nun ən güclü müttəfiqlərindəndir"

"Son vaxtlar Türkiyə-Amerika münasibətlərindəki müsbət ab-havadan məmnunuq", - deyə Ərdoğan bildirib. O xatırladıb ki, iki ölkə arasında münasibətlərin hərtərəfli müzakirə edildiyi strateji mexanizmin sonuncu iclası bu ilin martında Vaşinqtonda baş tutub. Bu görüş terrorla mübarizədən müdafiə sənayesinə, enerjidən iqlim və ətraf mühit məsələlərinə qədər yeni məsləhətləşmə mexanizmləri yaratdı.

Keçən il ticarət dövriyyəmiz 30 milyard dolları keçsə də, biz bu rəqəmi 100 milyard dollara çatdıra biləcəyimizə inanırıq PKK, PYD, YPG və FETÖ-yə verilən dəstəyin sona çatması NATO müttəfiqimiz Amerikanın Türkiyəyə qarşı tətbiq etdiyi tədbirlər və müdafiə sənayesindəki məhdudiyyətlərin də sanksiyaların güvən hissinə mənfi təsir göstərdiyi açıqdır "Amerikanın Düşmənlərinə Sanksiyalar Yoluyla Qarşı Mübarizə Aktı"na uyğun olaraq və Türkiyənin F-35 proqramından kənarda qalması müttəfiqlik ruhuna ziddir", - deyə Ərdoğan bildirib.

Ərdoğan həmçinin ABŞ Konqresinin müdafiə ixracı üçün lisenziyalar üçün müraciətlərə daha tez baxmasının məqsədəuyğun olacağına inandığını bildirib. Türkiyə lideri çıxışını belə yekunlaşdırıb: "Bütün dünya kimi biz də noyabrın 5-də ABŞ-da keçiriləcək prezident və Konqres seçkilərini diqqətlə izləyirik. Kimin prezident olmasından asılı olmayaraq, Amerikaya baxışımız və yüksək səviyyəli dialoqumuz davam edəcək. Türkiyə NATO-nun ən güclü müttəfiqlərindən biridir, eyni zamanda, biz Qərb dünyası ilə əməkdaşlığı inkişaf etdirərkən, gücləndirməkdə qərarlıyıq, Şanxay əməkdaşlıq təşkilatı, BRİCS və ASEAN kimi təşkilatlarla dialoqun əsasını təşkil edirik -ölkəmizin maraqlarına əsaslanan mərkəzçi yanaşma mövqeyindəyik".

**V.VƏLİYEV**

# BÖYÜK QAYIDIŞ:

## Ağdamın dirçəliş və inkişaf dövrü

**Prezident İlham Əliyev: "Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var"**

Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verilib. Bildiyimiz kimi, işğal altında saxlanılan ərazilərimizdə dağıdılan yaşayış məntəqələri, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, tarixi-dini abidələrimizə ciddi ziyan dəyib, fərdi və çoxmənzilli yaşayış evləri məhv edilib. Bu gün artıq ərazilərimizdə intensiv şəkildə bərpa və yenidənqurma işləri ardıcıl olaraq həyata keçirilir. Dövlət başçısının işğaldan azad olunan ərazilərə səfərləri çərçivəsində yeni layihələrin həyata keçirilməsinə start verilir. Füzuli, Şuşa, Zəngilan kimi işğaldan azad olunan ərazilərdə aparılan abadlıq-quruculuq işləri uğurla davam etdirilir. Artıq bildiyimiz kimi, Füzuli və Zəngilanda beynəlxalq hava limanları qısa bir zamanda tikilərək istifadəyə verildi. Laçında isə beynəlxalq hava limanının tikintisi davam etdirilir. Görülən irimiqyaslı işlər bu ərazilərin müasir bir şəhərə çevriləcəyindən xəbər verir. İşğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə, ilkin olaraq, pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilib. Əlbəttə ki, həyata keçirilən genişmiqyaslı layihələr deməyə əsas verir ki, işğaldan azad olunan bütün ərazilərimiz müasir tələblər çəçivəsində yenidən qurulur.

Erməni vandalları, təcavüzkarları tərəfindən dağıdılmış əraziləri yenidən qurmaq böyük güc, potensial və zaman tələb edir. Yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub və işğaldan azad edilən ərazilərdə böyük işlər reallaşır. Azərbaycan sosial layihələrini uğurla reallaşdırır və işğaldan azad olunan ərazilərdə silsilə və kompleks tədbirlər həyata keçirilir. Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra istifadəyə verilməsi, eləcə də Laçında Güləbird kəndində Su Elektrik Stansiyası istifadəyə verilməsi bu ərazilərdə quruculuq işlərinin aparılmasından bir xəbərdir. Laçın rayonu işğaldan azad olunandan bir neçə ay sonra istismara verilən Su Elektrik Stansiyası azad edilmiş torpaqlarda istismara verilən ilk elektrik stansiyasıdır.

### AĞDAMDA ƏN MÜASİR STANDARTLARA CAVAB VERƏN HOTEL

Azərbaycan Prezidenti mütəmadi olaraq işğaldan azad olunan ərazilərə səfərlər edir və bu məkanlarda görülən işlərlə tanış olur, yeni məkanların, obyektlərin təməlini qoyur. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam şəhərinə səfəri zamana "Aghdam City Hotel"in açılışında iştirak edib. Hotelin binası 5 mərtəbədən ibarətdir. Ən müasir standartlara cavab verən hotelin binasında 130 otaq vardır. Burada qonaqların zövqünü oxşayan interyer işləri görülüb. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans və iclas zalları yaradılıb. Hoteldəki restoran və barlar qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını daha maraqlı keçirmələrinə geniş imkanlar açır. Hoteldə fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş 4 otaq da mövcuddur. "City Hotel"də qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes və SPA mərkəzləri də yaradılıb. Prezidentin dediyi "Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var", - fikri reallığa çevrilir.




### EYVAZXANBƏYLİ KƏNDİNƏ 1563 NƏFƏR KÖÇÜRÜLƏCƏK

İşğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da quruculuq işləri geniş vüsət alıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 19-da Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak ediblər. Kəndin layihələndirilən ümumi ərazisi 300 hektara yaxındır. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Şişpapaqlar, Kosalar və Eyvazxanbəyli kəndləri ilə birlikdə layihələndirilib.

Eyvazxanbəyli kəndində 4038 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Bu məqsədlə 1091 fərdi evin tikilməsi nəzərdə tutulub. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 88,3 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1563 nəfərin köçürülməsi üçün 427 fərdi evin inşası planlaşdırılır. İnşa ediləcək evlər iki, üç, dörd və beşotaqlı olacaq. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, bayraq meydanı, tibb məntəqəsi, digər xidməti obyektlərin tikintisi və istirahət parkının salınması planlaşdırılıb. Əhalinin məşğulluğunun təmin edilməsi üçün zəruri tədbirlər də görüləcək.

### KƏNGƏRLİ KƏNDİNDƏ 292 FƏRDİ EV İNŞA EDİLİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdama səfəri çərçivəsində rayonunun Kəngərli kəndində aparılan bərpa işləri ilə tanış olub. Kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Qeyd edilib ki, Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2544 nəfərin (632 ailə) məskunlaşdırılması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşdırılacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 292 fərdi ev inşa edilir. Kəndin ərazisində söküntü və şaquli planlaşdırma işləri artıq tamamlanıb. Bundan başqa, 292 fərdi evin torpaq, bünövrə, hörgü işləri və 278 fərdi evin isə xarici tamamlama işləri başa çatdırılıb. Hazırda 94 fərdi ev üzrə daxili bəzək işləri görülür və mebel avadanlığı quraşdırılır.

### SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFI ÜÇÜN ƏLVERİŞLİ İNVESTİSİYA MÜHİTİ

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti həyata keçirilir. Bu məqsədlə ölkənin müxtəlif bölgələrində sənaye parkları və məhəllələri yaradılır. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Hazırda ölkədə 8 sənaye parkı fəaliyyət göstərir. Bunlar Sumqayıt kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarıdır.Bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi də fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub və yeni zavodların açılış mərasimlərində iştirak edib. Ağdam Sənaye Parkı dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanına əsasən yaradılıb. Sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Əlbəttə ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. İqtisadiyyatımızın inkişaf vektorlarının dayanıqlı mənbələr hesabına qlobal çağırışlara uyğunlaşdırılması qeyri-neft sənayesinin gücləndirilməsinin önəmini artırır.

Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib. Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılır. Bunun nəticəsidir ki, artıq İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parkları arasında Ağdam Sənaye Parkı rezident sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci yerdədir.

### YARADILAN YENİ İŞ YERLƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev sənaye parkında əvvəlcə "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun açılışında iştirak edib. "BAFCO İnvest" MMC 2023-cü ilin mart ayında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Sənaye parkının 2,5 hektar ərazisində Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikintidə istifadə üçün nəzərdə tutulan, dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalı həyata keçirilir. Zavod ildə 510 min cüt ayaqqabı istehsalı gücünə malikdir ki, bunun da 350 min cütü təhlükəsizlik ayaqqabıları, 160 min cütünü isə poliuretan çəkmələr təşkil edəcək.

### İNVESTİSİYA DƏYƏRİ 8,92 MİLYON MANAT OLAN MÜƏSSİSƏDƏ 60 NƏFƏRLİK İŞ YERİ

Ağdam Sənaye Parkının rezidentlərindən biri olan "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun açılışında dövlətimizin başçısı iştiak edib. Sənaye parkının 1,6 hektar ərazisində "Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı" layihəsini həyata keçirəcək. İnvestisiya dəyəri 8,92 milyon manat olan müəssisədə 60 nəfər işlə təmin ediləcək. İşçilərin əsasən Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur. Prezident İlham Əliyev Ağdam Sənaye Parkında, həmçinin "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodunun açılışında iştirak edib. Türkiyə, İtaliya, Rusiya və Çin texnologiyalarının tətbiq olunduğu müəssisənin illik gücü 33 min ədəd müxtəlif avadanlıq istehsalıdır. Ümumi investisiya dəyəri 3,9 milyon manat olan müəssisədə 90 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. Zavodda istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycana böyük uğurlar gətirən LİDER



Tarixin elə bir dövrü yoxdur ki, Azərbaycan xalqı çətinliklərlə üzləşməsin, gərgin və ağır sınaqlardan keçməsin. Lakin ən ağır zamanında belə əyilməyib, məqsəd və hədəfindən yayınmayıb. Bu qətiyyəti və mübarizliyi sayəsində Azərbaycan xalqı 1991-ci ilin oktyabrın 18-də dövlət müstəqilliyini əldə edib, BMT-də 193 dövlət arasında özünə layiq yer qazana bildi. Təəssüflər olsun dövlət müstəqilliyinin əldə edilməsindən az sonra hakimiyyət uğrunda böyük savaş başlamışdır. Zor gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkənin müstəqilliyini məhv olmaqdan, xalqı üzləşdiyi bəlalardan xilas etmək üçün düşünülmüş tədbirlər görmək iqtidarında deyildi. Siyasi baxımdan təcrübəsiz, dövlət idarəçiliyində heç bir təsəvvürə malik olmayan hakimiyyət ölkəni ağır bəlalara sürükləyirdi. Ölkə daxili vəziyyətin idarə olunmaz durumda olmasından istifadə edən erməni hərbi birləşmələri ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Bu kimi ağır problemlərin həllinə səy göstərməkdənsə AXC-Müsavat iqtidarı narazı xalqın üzərinə güc strukturlarını göndərir, onları zor gücünə sakitləşdirməyə çalışırdı. 1993-cü ilin iyun hadisələri ölkə daxili ağır durumun kulminasiya nöqtəsi oldu. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi. Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütlələri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxarması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq üçün ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".Nəticə etibarilə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır. Ulu Öndərin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.

## Birmənalı mövqe ondan ibarətdir ki, Azərbaycanın qurucusu və memarı Ulu Öndər Heydər Əliyevdir

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan həm də, dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Bu baxımdan haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi: "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun". 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın sosail-iqtisadi qüdrətinin artmasına təkan oldu. Əfsanə kimi görünən "Əsrin müqaviləsi" Azərbaycana dünya miqyasında böyük və inanmaz siyasi, iqtisadi dividentlər gətirdi. Məhz bundan sonra dünya arenasında Azərbaycanla iki və çoxtərəfli müqavilələrin sayı artdı. Əksər dövlətlər, nüfuzlu maliyyə qurumları ölkəmizlə əməkdaşlığa can atdı. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndərin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünya görüşlərinin toqquşması baş vermədi, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı. Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı digər sahələr də mühüm addımlar atdı, qərarlar imzaladı. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan Respublikası ətrafında sıx birləşməsinə nailı olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən həmin ilin noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayı keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparmışdır. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur.

## Yeni və qüdrətli Azərbaycan uğrunda

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan dövlətinə və xalqına böyük qələbələr gətirdi. Bu gün də xalqımız xöşbəxtdir. Çünki Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət ölkə Prezidenti İlham Əliyev tərəfində uğurla davam etdirilir. 2003-cü ildən ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün dünyanın diqqət mərkəzindədir. Prezident İlham Əliyev xalq və dövlət üçün gördüyü işlərdən məmnun olduğunu dəfələrlə çıxışlarında qeyd edib: "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı".

Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində üçrəngli Bayrağımızı ucaltdıqdan sonra qalib Azərbaycan xalqına müraciətində demişdir: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək". Bu gün işğaldan azad edilən ərazilərimizdə böyük quruculuq, təmir, tikinti işləri aparılır. İnsanlar öz doğma yurd-yuvalarına qayıdıb, əvvəlki normal həyatlarını bərpa edirlər. Bu qayıdış hər bir azərbaycanlıda böyük qürur hissi yaradır. Əsaslı olaraq Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə bildirib ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur, bu danılmaz aksiomadır: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik". Əhalinin sosial vəziyyətinin yaxşılaşması isə davamlı xarakter daşıyır. Vaxtaşırı olaraq şəhid ailələrinin, qazilərin mənzil, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Şəhid ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə aylıq sosial ödəniş təyin olunması, 3 565 şəxsə sığorta ödənişinin edilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının göstəricisidir. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Ötən dövr ərzində şəhid ailələrinə və qazilərə 13560 mənzil və fərdi ev verilib. Qazilər avtomobillərlə təmin olunub, xarici ölkələrdə müalicə və müayinələri təmin edilib.

Təbii ki, görülən və həyata keçirilən möhtəşəm işlər bundan sonrada davam etdiriləcək. Çünki xalqın və dövlətin maraqlarına söykənən Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət bizlərdən məhz yeni-yeni uğurlar və nailiyyətlər qazanmağı tələb edir. Azərbaycan dövləti var olduqca Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət dəyişməyəcək. Dünya və dünyanın bir hissəi olan Azərbaycan dövləti var oduqca Prezident, Fateh Sərkərdə İlham Əliyevin 200 illik məğlubiyyətlərə son qoyub, bizlərə Qarabağı qaytarıb, böyük qürur yaşadan hərbi qələbəsi və uğurlu siyasəti ilə qazanılan sosial -iqtisadi nailiyyətləri unudulmayacaq və daim kitablarda, xüsusilə də orta və ali məktəblərin dərsliklərində əks olunacaq, öyrəniləcək və təbliğ ediləcək.

**İLHAM ƏLİYEV**

# Tariximizə qızıl hərflərlə yazılmış böyük əmrin kiçik tarixçəsi




***27 sentyabr- Qələbə ilə bitən 2-ci Qarabağ müharibəsinin başlandığı gün kimi tariximizdə ən şərəfli yeri tutdu. Respublika tariximizdə ilk dəfə işğal edilmiş torpaqları azad etmək üçün apardığımız müharibədə qalib gəldik və düşməni bütün cəbhələrdə məğlub etdik. Çünki ilk dəfə idi ki, dövlətin, xalqın, ordunun başında qüdrətli strateq, peşəkar siyasətçi, iradəli Ali Baş Komandanımız var idi. Çünki öz vətən torpaqlarını unutmayan, vətən uğrunda canını qurban verməyə hazır olan milyonlarla oğul və qızlarımız var idi.***

Çünki bu çünkilərin hamısını bu yazıda qeyd etmək mümkün deyil, heç olmasa, bəzilərini qeyd edim - işğaldan sonra torpaqlarımızın qaytarılmasını şərtləndirəcək bütün faktorları nəzərə almaqla strateji planları səbrlə həyata keçirmişdik - güclü iqtisadiyyat və böyük maliyyə bazası yaradılmış, bunun köməyi ilə ordumuz ən müasir hərbi texnologiyalarla təchiz edilmiş, ardıcıl təlimlərlə ordunun peşəkarlıq səviyyəsi yüksəldilmiş, kosmosa çoxlarının "nəyə lazımdır" dediyi peyklər buraxılmış, xarici siyasətdə çoxvektorlu və balanslı diplomatiya yürüdülmüş və qlobal miqyasda ölkəmizin nüfuzunun artırılması təmin edilmiş, problemin həllinə təsir edəcək güc mərkəzləri neytrallaşdırılmış, əhalidə vətənpərvərlik hissi və qələbə üçün vacib olan ruh yüksəkliyinin formalaşdırılması təmin olunmuş, qlobal informasiya müharibəsində erməni təbliğat maşınının təsiri azaldılmış, ölkə daxilində olan agentura, satqınlar zərərsizləşdirilmiş, dövlət və xalq arasında birlik tarixdə görünməmiş səviyyəyə çatmışdı.

Bir sözlə, hərbi qələbədən əvvəl səbrlə və əzmlə aparılan işlər nəticəsində siyasi, iqtisadi və informasiya müharibəsi udulmuşdu. Dünya həqiqətləri artıq bilirdi. Qalırdı yalnız silahlı müharibə, şünki düşmən sülhə razı olmurdu. Azərbaycan əsgərinin ruh yüksəkliyi, qələbəyə inamı da tarixdə görünməmiş səviyyədə idi. İllərdir bu əsgərlər hər gün Ali Baş Komandanın əmrini gözləyir və hər an vətəni azad etməyə hazır dayanırdılar. Bir qədər gec oldu amma o gün gəlib çatdı- 2020-ci ilin 27 sentyabrında səbirsizliklə gözlənən o tarixi əmr verildi və dünyanın ən böyük hərbi strateqlərini, peşəkar analitiklərini, hərbi tədqiqat mərkəzlərini heyran edən bir müharibə başladı.

Döyüş əməliyyatları yüksək komandanlıq məharəti ilə idarə edildi və əsgərlərimiz tərəfindən uğurla həyata keçirildi. Düşmənin keçilməz müdafiə sədləri yenilməz qəhrəmanlarımız qarşısında aciz qaldı. Döyüşlərdə əsgərlərimiz elə bir igidlik nümunəsi göstərdilər ki, uzun əsrlər dastanlara dönüb yaşayacaq. Təkcə, analoqu olmayan Şuşa əməliyyatını misal göstərmək kifayət edər, hansı ki, dünya hərb tarixində hələ çox uzun müddət müzakirə olunacaq, öyrəniləcək.

Vətən müharibəsi üçün olduqca düzgün vaxt seçildi və yaranmış nadir tarixi şansdan məharətlə istifadə edildi. Müharibə dövründə Ali Baş Komandamınız, Prezident İlham Əliyev ən nüfuzlu qlobal media orqanlarına müsahibəsində dünyaya master-klass keçdi, düşməni və onun müttəfiqlərini siyasi-diplomatik cəbhədə də darmadağın etdi, dünya ictimaiyyətinin rəğbətini qazandı.

Minimum itkilərlə maksimum nəticə əldə olundu. İşğalçı ölkə çox uzun müddət özünə gəlməyəcək şəkildə darmadağın edildi, torpaqlarımız azad edildi, həmin ərazilərdə sürətlə quruculuq və bərpa işləri başladı.

4 il keçib, artıq Qarabağ münaqişəsi orada məvəqqəti məskən salmış terrorçu rejimlə birgə tarixin arxivinə gömülüb. Ermənistan demək olar ki, təklənib, Azərbaycan öz müttəfiqlərinin və dostlarının sayını artırıb. Bütün regional iqtisadi, hərbi, siyasi üstünlük bizim tərəfimizdədir.

Ən əsası 2020-ci ildə dünyaya Azərbaycan xalqının və Azərbaycan dövlətinin kim olduğu əyani surətdə göstərildi. Bu böyük Qələbə üçün canlarını vətən uğrunda qurban vermiş 3 minədək şəhidimizə borcluyuq. Onları xatirəsini daim yaşadacağıq, onlar bu xalqın yaddaşında heç vaxt ölməyəcək, cismləri vətən torpağına qarışsa da, ruhları daim bizimlə olacaq. Vətən müharibəsində həm ön, həm arxa cəbhədə döyüşən hər kəs böyük bir qəhrəmandır. Vətən onlara minnətdardır.

Bu böyük Qələbəni ölkəmizə, xalqımıza bəxş edən, 2 ay yuxusuz gecələr keçirib həm siyasi-diplomatik, həm də odlu-alovlu müharibəni böyük qələbə ilə başa vuran müzəffər sərkərdəmiz İlham Əliyevin adı tariximizin ən şanlı səhifəsinə qızıl hərflərlə əbədi yazıldı.

Bu müharibədə arxa cəbhə də böyük qəhrəmanlıq göstərdi. Ehtiyac olmasa belə insanlarımız orduya, əsgərlərə öz payını göndərmək üçün çalışdılar, hərbi komissarlıqların qarşısı cəbhəyə getmək istəyənlərlə dolubdaşdı. Bununla xalqımız öz ordusuna ən böyük mənəvi dəstəyi verdi.

İnformasiya müharibəsində jurnalistlərimiz, diplomatlarımız, həmçinin, ölkəmizdə və xaircdə yaşayan, beynəlxalq dilləri bilən milyonlarla sadə azərbaycanlı gecə-gündüz qızğın mübarizər apardı, erməni təbliğat maşınını dünya ictimaiyyəti qarşısında təkzibedilməz faktlar, sənədlər və sanballı arqumentlərlə darmadağın etdi. Dünyaya erməni yalanını və Azərbaycan həqiqətlərini çatdırdılar.

Bu müharibədə ölkəmizin, xalqımızın bütün təşkilatları, fərdləri döyüşdü- hərə öz cəbhəsində. Dövlətlə xalq bir yumruq kimi birləşdi. Və bu "Dəmir yumruq" düşmənin başına əsrlərin yığılmış gücü ilə endi- elə formada ki, çox uzun müddət bundan özünə gəlməyəcək. İndi azad olunmuş torpaqlarımızda böyük yenidənqurma işləri gedir. Şəhərlər, kəndlər bərpa olunur, yollar çəkilir, evlər tikilir, ağaclar əkilir, torpaqlarımız becərilir... Lakin işimiz hələ bitməyib, qarşıda bizi daha böyük işlər gözləyir. Hələ çox qələbələrimiz, uğurlarımız olacaq.

Dədə Qorqudun eyni adlı dastan əsasında çəkilmiş məşhur filmdəki sözləri sanki bu günlər üçün deyilmişdi: "Yurdumuzun başına çox bəlalar gəldi oğul, bu meydanda çox igidlərimiz qırıldı, amma tamam qırılıb qurtarmadıq, hələ varıq, olacağıq, artacağıq... əsas odur ki, torpağı yağılardan qoruyasan, əgər torpağı qorumasan əkib-becərməyə dəyməz, əkib-becərməsən qorumağa dəyməz... oğul, qalx uca dağın başına 3 tonqal qala... qoy elimiz yığışıb gəlsin, yurdumuzu bərpa edək... uca dağın ocaqları həmişə yanar dursun..."

***

4 il qabaq uca dağ başında 2 tonqal qalanmışdı, elimiz yığılıb düşmənə qarşı döyüşdü və qalib gəldi. Və sonra 3 tonqalı qalandı, indi elimiz yığılıb yurdumuzu bərpa edir. Bundan sonra o dağlarda ancaq 1 tonqal qalanacaq- toy-bayram qeyd edilməsi üçün. Uca Tanrının köməyi ilə, ocağımız heç vaxt sönməyəcək, həmişə ən uca dağların başında şölələnəcək.

***Elçin Bayramlı***

# Kanakların Bəyanatı: "Fransanın Yeni Kaledoniyada törətdiyi hadisələr Əlcəzair müharibəsi zamanı yerli əhaliyə qarşı rəftarı xatırladır"









***Bu il mayın 13-dən - Yeni Kaledoniyadakı indiki hadisələrin başlanğıcından etibarən Fransa bu uzaq ərazidə köhnə müstəmləkə kabusunu yenidən canlandırmağa başlayır. Dövlətin adanın cənubundakı Mont-Dore kommunasında yerləşən Sent-Luis qəbiləsinə münasibəti, təəssüf ki, Əlcəzair müharibəsi zamanı yerli əhaliyə qarşı rəftarı xatırladır. Heç bir xəcalət çəkməyən dövlət qeyri-mütənasib güc münasibətinə baxmayaraq, zərərsizləşdirilməli və susdurulmalı olan 1200 cinayətkarla iş aparırmış kimi davranır.***

Tarixinə iz qoymuş qəbiləmiz üç övladının öldürülməsinə layiq idimi? Bu gənclər siyasi ideallarını cəsarətlə müdafiə etdikləri üçün öldürülmüşdü. Əllərində, sadəcə, ov tüfəngləri, daşatma alətləri, ayaqlarında sadə başmaqlar olan bu gənclər GIGN-in (Fransa Milli Jandarması) güllələri altında can verdilər. Görünür, bizim bədbəxtliyimizə görə Yeni Kaledoniya ilə Fransa arasındakı bir neçə min kilometr məsafə özünümüdafiə anlayışını Sakit okeanda öldürmək üçün lisenziyaya çevirdi.

AZƏRTAC xəbər verir ki, bu fikirlər kanakların yaydıqları bəyanatda yer alıb.

Bəyanatda, həmçinin deyilir: "1981-ci ildə edam edilən müstəqillik lideri Pierre Declercqin sui-qəsdçilərinin peşman olmadıqları görünür. Buna görə də dövlətin üç gənc kanakı güllələmək üçün bu qədər vasitəni işə salmağa vadar edən səbəblərini sorğulamaq haqqımızdır. Daha narahatedici məqam isə hələ də qalan qəbiləmizin gənclərindən, qardaşlarının eyni aqibəti ilə üzləşməmək üçün hakimiyyətə təslim olmalarının tələb edilməsidir. Hər kəs bilir ki, belə kiçik ərazidə onlar istənilən anda yaxalanıb həbs oluna bilərlər.

Beləliklə, Sent-Luis adasında ədalətin qeyri-adi sürətlə "bərpa olunmasına" çalışırlar. Halbuki hakim Claire-Marie Casanovanın dediyi kimi, "ədalət heç vaxt zamanında yerində deyil, heç zaman vaxtından əvvəl olmayıb, həmişə gecikməsi ilə tənqid edilib". Bəs niyə qəbiləmizin hüquqi məsələlərində birdən-birə bu tələsiklik var? Bu suala cavab tələb olunur, çünki dövlətin bu məsələdəki həqiqi motivləri ilə bağlı şübhələrimiz var.

Əminliklə bildiyimiz tək şey budur ki, bu dövlət üçün nə hüquqa hörmət edilməsi, nə də insan həyatlarının itirilməsi onun ilahi missiyasını yerinə yetirməyinə əngəl törətmir. Buna əmin olmaq üçün, sadəcə olaraq, bizim yollarımızda qanunsuz şəkildə dövr edən hərbi avtomobillərin sayının artmasını müşahidə etmək kifayətdir. Sanki qəbiləmizin ətrafında Sakit okeanın "Berlin divarı"nı tədricən yüksəldirlər. Torpaqlarımız blokadaya alınıb, əhalimiz aclıq çəkir və gənclərimiz öldürülür. Biz artıq yerli məhkəmədən heç nə gözləmirik. Ona məcburən müraciət edirik, amma onun ədalətsiz qərarları güclüləri qoruyur, zəifləri əzir və bizi anlaşılmazlığın dibinə salır.

Biz Sent-Luis qəbiləsinin istəmədən də olsa, dövlət tərəfindən təşkil edilmiş dəhşətli bir oyunun mərkəzində olduğuna əminik. Burada qurbanlar dövlət tərəfindən təşkil olunan təbliğat vasitəsilə cəllad kimi təqdim edilir və beləliklə, müstəmləkə nizamını qorumağa çalışırlar.

Əgər Sent-Luisdəki hazırkı sistem dövlətin bütün ərazini nəzarətdə saxlamaq iddiası üçün bir "qəza testi" kimi təsvir edilirsə, bilsin ki, bütün bir qəbiləni şəhid etmək bəlkə də Kanakın müstəqillik arzusunu boğmaqdan daha asan olacaq".

Bəyanatı Qəbilə klan başçıları Şurasının sədri Eugene Decoire və şuranın üzvü Yohann Vamytan imzalayıblar.

# Bir ailənin faciəsi: Xədicə komaya necə düşdü?

## Övladı 8 aydır komada olan ana prezidentə müraciət edir: "Onları cəzalandırın"

Bakı sakini Şahnaz Mehdiyeva övladının sağlamlığını 100 faiz itirməsinə, komaya düşməsinə və 8 aydır tibbi cihazlara bağlı yaşamasına görə Bakı Sağlamlıq Mərkəzinin həkimlərini günahlandırır. Ananın qəzetimizə ünvanladığı müraciətdə bildirilir: ”21 fevral 2024 il tarixində, heç bir xroniki xəstəliyi olmayan tam sağlam, 11 yaşlı övladım Babazadə Xədicə Zamin qızını diş müalicəsi üçün Bakı Sağlamlıq Mərkəzində fəaliyyət göstərən stomatoloq Bəhruz Rüstəmovun yanına aparmışdıq. Uşağın iynə qorxusu olduğu







üçün müalicənin sedasiya yolu ilə aparılmasını təklif etdik, biz sedasiyanın 15-20 dəqiqəlik adi yuxu iynəsi olduğunu bilmişik. Stomatoloq da bununla razılaşdı”.

Ana deyir ki, onlara sedasiyanın hansı növündən istifadə olunacağı barədə məlumat da verilməyib: ”Həkim müalicə prosesinin neçə saat davam edəcəyini, risk faktorlarını və s. izah etmədi. Həmçinin uşaqda heç bir sedasiyaöncəsi zəruri yoxlamalar aparılmadı, heç bir anamnez toplanılmadı, valideynlərin yazılı razılığını almadan narkoz tətbiq edildi. Tətbiq edilən zaman biz yanında olmamışıq, klinikanın qaydalarına görə bizim kabinetdə deyil, dəhlizdə gözləməyimizi xahiş etdilər”.


Forma № 188/U
Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 09.10.2002-ci il tarixli 137 saylı əmri ilə təsdiq edilmişdir
AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN "MƏHKƏMƏ TİBBİ EKSPERTİZA VƏ PATOLOJİ ANATOMİYA BİRLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ
EKSPERT RƏYİ № 657/KEŞ (təkrar)
(İş materialları üzrə ekspertiza)
Nərimanov rayon prokurorluğunun müstəntiqi, III dərəcəli hüquqşünas Teymur Məmmədalıyevin
«09» «07» 2024-cü il tarixli 240066062 №-li qərarı əsasında
Ekspertizanın keçirildiyi yer: KOMİSYON EKSPERTİZALAR ŞÖBƏSİ
Aşağıdakı tərkibdə məhkəmə-tibbi ekspert komissiyası:
Sədr: Ceyhun Allahverdiyev – Birliyin Mərkəzi Ekspertizalar şöbəsinin rəisi, iş təcrübəsi ... ci ildən.
Üzvlər: İsrail Məhərrəmbəyli – Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin anesteziologiya və reanimatologiya üzrə ekspert mütəxəssis.
Bilal Əliyev - ATU-nun Tədris Cərrahiyyə Klinikasının üz-çənə cərrahı.
Məhkəmə-tibb eksperti(ləri): Nasimi Əlinağıyev – Xəzər rayon şöbəsinin rəisi, tibbi eksperti, iş təcrübəsi 1998-ci ildən.
Vətəndaş Babazadə Xədicə Zamin qızının həkim işinə dair
Tibbi sənədlər və 240066062 saylı iş materialı üzrə ekspertiza aparmışlar.
Ekspertizanın başlanma tarixi: «11» «07» 2024-cü il.
Ekspertizanın başa çatma tarixi: «23» «07» 2024-cü il.
Azərbaycan Respublikası CPM-nin 97 maddəsində nəzərdə tutulan ekspertin hüqu... edildi. AR CM-nin 297 maddələri üzrə ekspert bilə-bilə yalan rəy verməyin xəbərdar edildi.
Ekspert (lər)
Ekspertizada həll edilməli suallar və «Ekspert rəyi»nin digər bölmələri sonrakı 09 ...
«Ekspert rəyi» prokurorluğun, DİN-nin, DTX-nin, digər istintaq orqanlarının qərarı əsasında tərtib edilir


– 10 –
KEŞ-657, 23.07.2024-cü il Babazadə Xədicə Zamin q.
7. Xədicə Babazadədə "Dəqiqləşdirilməmiş anafilaktik şok. Ürək fəaliyyətinin uğurlu bərpası ilə nəticələnən ürək dayanması. Baş beynin digər rubrikalarda təsnif olunmayan anoksik zədələnməsi. Digər və dəqiqləşdirilməmiş qıcolmalar"ın endotraxeal intubasiya ilə səbəbli əlaqəsi istisna edilir. Belə ki, patologiya intubasiyadan sonrakı dövrdə baş vermişdir.
8. Xədicə Babazadədə "Dəqiqləşdirilməmiş anafilaktik şok. Ürək fəaliyyətinin uğurlu bərpası ilə nəticələnən ürək dayanması. Baş beynin digər rubrikalarda təsnif olunmayan anoksik zədələnməsi. Digər və dəqiqləşdirilməmiş qıcolmalar"ın baş verməsinin müddətlə əlaqəsi istisna edilir. Belə ki, anafilaktik şokla əlaqədar ürək dayanması (və ya ürək fəaliyyətinin kəskin şəkildə zəifləməsi) nəticəsində beyində qeyd olunan dəyişikliklər baş verə bilər. Bu prosesin sürətli və adekvat bərpasına aldığı psixotrop dərman preparatları ləngedici təsir göstərmişdir.
Ceyhun Allahverdiyev
İsrail Məhərrəmbəyli
Bilal Əliyev
Nasimi Əlinağıyev
23.07.2024-cü il

Şahnaz Mehdiyevanın sözlərinə görə, onlar gözləmə zalına çıxdıqdan sonra 11 yaşlı Xədicəyə uzunmüddətli sedasiya, yəni ümumi narkoz tətbiq edilib, intubasiya edilməyib və dişini müalicəyə başlayıblar. Qeyd edək ki, intubasiya xəstənin ağ ciyərlərini süni tənəffüs aparatı ilə birləşdirmək üçün nəfəs borusuna xüsusi boru yerləşdirilməsinə deyilir və sözügedən stomatoloqun otağında bu avadanlıq olmayıb.

”Biz övladımızı Bəhruz həkimə əmanət edib çölə çıxmışıq. Daha sonra kabinetə anestezioloq Fərəh Amanova gəldi və onlar içəridə ikisi birlikdə, bizim iştirakımız olmadan qərara gəliblər ki, sedasiya deyil, anesteziya, yəni ümumi narkoz olunsun. Bəhruz həkim ansetezioloq Fərəh Amanovaya deyib ki, proses uzun olacaq, uşaq da iynədən qorxur, ona görə də Fərəh həkim bizə heç bir məlumat vermədən, heç bir anamnez toplamadan uşağa birbaşa ümumi narkoz verib. Anestezioloq müalicə işi başa çatanadək xəstənin yanında dayanmalı, vəziyyətini nəzarətdə saxlamalı idi, qəfil pisləşmə olsa müdaxilə etməli idi. Bəhruz həkim də bir tibb işçisi olaraq anestezioloqdan tələb etməli idi ki, proses boyunca anestezioloq uşağı nəzarətdə saxlasın. Lakin bunu etməyiblər, uşağa narkoz verdikdən sonra Fərəh Amanova kabineti tərk edərək Xədicəni nəzarətsiz qoyub”, - ana deyir.

Ana həmçinin bildirir ki, prosesin başlamasında təxminən 20 dəqiqə sonra stomatoloq Bəhruz Rüstəmov uşağın rənginin göyərdiyini görərək Fərəh Amanovaya məlumat verib: ”Fərəh Amanova isə uşağın artıq kliniki ölüm keçirdiyini və etdiyi tibbi müdaxilənin heç bir faydasının olmadığını görüb, klinikanın reanimatoloqu Rauf Paşayevi köməyə çağırıb. Rauf Paşayev isə dərhal elektroşokla uşağın ürək fəaliyyətini bərpa edib. Mən sonradan bilmişəm ki, Fərəh Amanova daha əvvəl Astoriya Tibb Mərkəzində işləyən vaxtda da belə bir səhlənkarlıq törədib. Bunu bizə Prokurorluqda qəbulda olarkən təsadüfən ora qəbula gələn bir vətəndaş danışdı. Sən demə, bu qadın anoloji hadisəni bir neçə il əvvəl də törədib".

Övladının başına gətirilən faicə ilə bağlı müəmmalı məqamlardan birinin də hadisənin başvermə saatı ilə ona müdaxilə saatı arasındakı boşluğun olduğunu deyən Şahnaz Mehdiyeva bildirir: ”Bu hadisə təxminən 12:15 radələrində baş verdiyi halda övladımı saat 12:55 radələrində diş kabinetindən reanimasiyaya aparıblar. Niyə kliniki ölüm keçirmiş xəstəni 45 dəqiqə stomatoloji kabinetdə yubadıblar? Hadisə baş verən kimi mən koridorda huşumu itirmişəm və 4-5 saat sonra gözümü təcili yardımda açdım. Yoldaşım məni təcili yardıma endirib, oradakı həkimlərə tapşırıb və özü dərhal yuxarı, qızımın olduğu diş kabinetinə qaçıb. Amma stomatoloqun kabinetinin qapısı içəridən bağlı olub, onu içəri buraxmayıblar. Yoldaşım təkrar qayıdıb təcili yardım şöbəsinə, məndən məlumat almaq üçün. Yenidən yuxarı qayıdanda artıq uşağı reanimasiyaya apardıqlarını görüb. Bütün bunların hamısının videogörüntüləri var”.

Ailə sonradan mərkəzin təhlükəsizlik kamerasının görüntülərinə baxdıqda görüb ki, hadisə baş verəndən sonra digər həkimlər əllərində tibbi cihazlarla kabinetə daxil olurlar: ”45 dəqiqə diş kabinetində uşağa müdaxilə etdikdən sonra uşağı 3-cü mərtəbədəki diş kabinetindən çıxarıb 6-cı mərtəbədə yerləşən reanimasiyaya aparırlar. Bütün bunlara görə hadisə vaxtı övladım uzunmüddətli oksigensiz qaldığı üçün beyin fəaliyyətinin 100/98 % -ni qalıcı olaraq itirib. Hazırda 11 yaşlı övladım Xədicə Babazadəyə Hipoksik-İşemik Ensefolopatiya diaqnozu qoyulub və təməl yaşam funksiyalarını 100 % itirməklə vegetativ durumda yaşayır. 11 yaşlı balam həkim səhlənkarlığı ucbatından aylardır ki, komadadır.”

Ana bildirir ki, hadisədən 8 ay keçməsinə baxmayaraq Nərimanov Rayon Prokurorluğu, başlamış olduğu cinayət işini (AR CM-314.2) məhkəməyə göndərmir: ”Səbəb kimi, Səhiyyə Nazirliyi ”Məhkəmə Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyi”nin hadisə haqqında verdiyi ekspert rəyinin, hadisəyə səbəb olmuş məsuliyyətsiz həkimlərin xeyrinə yazılması göstərilir. Bu rəy saxtadır və həkimləri müdafiə məqsədilə verilib. Keçən 8 ay müddətində həm ölkə, həm xarici tibbi mütəxəssislərinin verdiyi açıqlamaya görə, sağlam bir insanın bu cür ağır koma vəziyyətinə düşməyinə səbəb, orqanizmin ən azı 10 dəqiqə və daha çox oksigensiz qalmasıdır”.

Qeyd edək ki, komaya düşəndən sonra Xədicə 4 gün müddətində Bakı Sağlamlıq Mərkəzində saxlanılıb, ailənin bildirdiyinə görə, bu müddət ərzində uşaq düzgün müalicə olunmayıb. 4 gün sonra Xədicə Mərkəzi Klinik Xəstəxanaya köçürülüb, orada ailəyə bildirilib ki, Xədicə oksigensiz qaldığı və ilk 72 saatda olunmalı olan müdaxilənin hec biri olunmadığı üçün beyninin bir hissəsi zədələnib.

Şahnaz Mehdiyeva deyir ki, dəfələrlə Məhkəmə Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinin eksperti Ceyhun Allahverdiyev və birliyin şöbə rəisi Cavid İsmayılovun qəbulunda olublar, lakin bir nəticə əldə edilməyib: ”Bizim ailə faciəmizə səbəb olan hadisənin təfərrüatını aydınlaşdırmaqda ya çətinlik çəkirlər, ya da absurd, heç bir əsası olmayan bəhanələrlə bizi ovundururlar. Mart ayından bəri ölkədə və xaricdə həkim, xəstəxana qalmayıb ki, müraciət etməyək. Amma 11 yaşlı övladımın xilası üçün heç nə edə bilmirik. Artıq bir neçə aydır ki, işə gedə bilmirəm, evimizin bir otağını reanimasiyaya çevirib komada olan övladımın keşiyini çəkirəm. Bir valideyn kimi hər gün bu faciə gözlərimin önündə yaşanır və ağrısını hiss edirəm. Müraciət etmədiyimiz dövlət qurumu qalmayıb. Əlimizdən heç nə gəlmir”.

Ana dövlət başçısından kömək istəyir: ”Cənab Prezident, mən sizin ədalətinizə güvənirəm, bizə dəstək olun, çıxış yolu göstərin. Bu cinayəti törədənlər cəzasız qaldıqca nə qədər analar gözüyaşlı qala bilər. Bu ölkədə bir ekspertiza ilə bacara bilmirik, saxta rəy verib övladımın qanını batırmağa çalışırlar. Bəs biz kimə müraciət edək, hara üz tutaq? Mən, Mehdiyeva Şahnaz Əkrəm qızı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci Vitse-prezident Mehriban xanım Əliyevaya, Baş Prokurur Kamran Əliyeva, daxili işlər naziri Vilayət Eyvazova, Ombudsman Səbinə Əliyevaya, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovaya, Səhiyyə Naziri Teymur Musayevə, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanova və digər aidiyyəti qurumlara müraciət edirəm, 11 yaşlı övladım Xədicə Babazadənin sağlamlığının 100% itirilməsinə səbəb olan hadisənin düzgün araşdırılıb, səhlənkar həkimlərin məsuliyyətə cəlb olunması üçün məsul orqanlara tapşırıq verməlrini xahiş edirəm.”

Qeyd edək ki, bütün bunlar bu günədək ölkə mətbuatında dəfələrlə işıqlandırılıb, Xədicənin dişini müalicə edən stomatoloq Bəhruz Rüstəmov hadisə ilə bağlı açıqlama verib: ”Hər iki valideyni uşağı panoram rentgeni ilə işlədiyim klinikaya gətirdi. Subyektiv və obyektiv müayinələrini etdikdən sonra ağız boşluğunda görülməli proseduralar haqqında məlumat verdim. Xədicənin valideynləri sedasiya ilə bağlı istəklərini bildirdiyinə görə təyin olunmuş vaxtda anestezioloq da klinikaya dəvət olundu. Əvvəlcə 46-cı dişin restavrasiyasını həyata keçirdim. Müalicə təxminən 15 dəqiqə çəkdi. Daha sonra 21-ci dişin endodontik müalicəsinə başladım. Kök kanallarının mexaniki, medikamentoz işlənməsindən sonra onu doldurdum. Prosedurun sonunda anestezioloq mənə işi təcili dayandırmalı olduğumu bildirdi. Mən işi saxladım və prosedur otağında olan anestezioloq pasiyentin vəziyyətini dəyərləndirəndən sonra təcili digər anestezioloq-reanimatoloqları prosedur otağına çağırdı. Bundan sonra mən heç bir stomatoloji müdaxilə etmədim”.

Baş verənlərin üzərindən 8 ay keçməsinə baxmayaraq bugünədək Bakı Sağlamlıq Mərkəzi hadisə ilə bağlı heç bir açıqlama verməyib, Mərkəzlə əlaqə saxlayan bütün media nümayəndələrinə ”açıqlama veriləcək” deyərək etinasızlıq göstərilib. Hadisədə adı çəkilən anestezioloq Fərəh Amanova da bütün bu müddət ərzində mətbuatdan uzaq gəzib, adı hallanan hadisə haqda heç nə deməyib. Obyektivlik naminə, yazıda adı çəkilən tibb müəssisəsinin və həkimlərin açıqlamalarını yayımlamağa hazırıq.

***Lalə Mehralı***

# Yurduna qayıdan köçkün UNİVERSİTET

***Bir qərinəyədək dövrdə düşmən işğalı altında qalan, əhalisi ata-baba yurdundan didərgin salınan, ev-eşiyi satılıb-sovulan, sərvətləri tar-mar olunan Qarabağın həm də tarixi-mədəni, dini abidələri, sosial obyektləri məhv edilmiş, didərgin salınmışdır. Uzun illədir ki, Qarabağ və Şərqi Zəngəzura məxsus idarə, müəssisə və təşkilatlar Bakıda və digər rayonlarda fəaliyyət göstərib. Bu günlər Qarabağ Universiteti kimi fəaliyyətə başlayan Xankəndi Pedaqoji İnstitutu kimi... Deməli, yaranan acınacaqlı vəziyyətdə insanlar kimi, illər, əsrlər boyu bu insanlara xidmət edən obyektlər də məcburi köçkün həyatı yaşamalı olur.***




Bu gün artıq dövlətimiz tərəfindən soydaşlarımız kimi, sosial obyektlər də yurduna qaytarılır. 270 ildən artıq dövrün qürur salnaməsini yazan 44 günlük Vətən müharibəsi və 2023-cü ilin 19-20 sentyabrında birgünlük antiterror əməliyyatı torpaqlarımızın işğalına son qoydu. Son olaraq düşməndən azad edilən Xankəndi, Xocalı, Xocavənd və Ağdərə ilə ərazi bütövlüyümüz və konstitusiya quruluşumuz bərpa olundu. Həmin ərazilərdə də 2020-ci ildə hələ müharibə bitməmiş azad edilən torpaqlarda aparılan quruculuq, bərpa işləri həyata keçirilir. Artıq Qarabağa Böyük Qayıdış da başlanıb, yüzlərlə soydaşımız yurduna qayıdıb. Bu günlər isə bütün Azərbaycan Qarabağ Universitetinin yenidən fəaliyyətə başlamasının qürur və sevincini yaşayır.



## Acı taleli təhsil ocağı

Xankəndi Pedaqoji İnstitutu 1969-cu ildə fəaliyyətə başlayıb. 1988-ci ildə ermənilərin yeni Qarabağ sevdasının ilk acısını Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin pedaqoji kollektivi yaşayıb. Azərbaycan torpağı olan Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin ərazi iddiaları ilə çıxış etmələri Xankəndi Pedaqoji İnstitutunda tədris prosesinin pozulması ilə nəticələnib. Xankəndi Pedaqoji İnstitutunun azərbaycanlı professor-müəllim və tələbə kollektivi erməni millətçilərinin əməllərinin, məkrli planlarının həyata keçirilməsinə maneçilik törətdiyindən onlara ciddi fiziki və mənəvi təzyiq göstərilirdi. İnstitutun Azərbaycan şöbəsinin ölüm təhlükəsi ilə üzbəüz qalan müəllim və tələbələri 1988-ci il mayın 16-da erməni silahlıları tərəfindən Xankəndindən qovuldu. Pedaqoji kollektiv Şuşa Mədəni-Maarif Texnikumunun tədris binası və yataqxanasında yerləşdirildi. 26 iyun 1998-ci ildə texnikumun binasında Şuşa ictimaiyyəti ilə görüşən Xüsusi İdarəetmə Komissiyasının sədri A.Volski növbəti tədris ilində tələbələrin Xankəndi Pedaqoji İnstitutuna qaytarılacağı haqqında söz verdi. Ancaq həmin dövrdə belə verilən sözləri çox eşidib, lakin nəticəsini heç görmədik.

Erməni iddialarının getdikcə genişlənməsi problemin tezliklə həllinə şübhə yaradırdı. Azərbaycanlı tələbələrin yenidən Xankəndi Pedaqoji İnstitutuna qayıdaraq ermənilərlə birlikdə təhsil alması qeyri-mümkün idi. Bu səbəbdən də 14 oktyabr 1988-ci ildə SSRİ Nazirlər Sovetinin sədri N.Rıjkov Xankəndi Pedaqoji İnstitutunun fəaliyyətinin müvəqqəti dayandırılması haqqında qərar verdi. Buna əsasən olaraq SSRİ Xalq Təhsili Komitəsinin sədr müavini Q.F.Qusev tərəfindən 17 oktyabr 1988-ci il tarixdə Xankəndi Pedaqoji İnstitutunun 2 il müddətinə müvəqqəti olaraq bağlanması qərarı verildi və institutun tələbələrinin həmin il noyabrın 1-nə kimi Azərbaycanın Gəncə, Ermənistanın Yerevan, Leninakan və Kirovakan pedaqoji institutlarına köçürülməsi planlaşdırıldı.

Erməni şöbəsi qərara etinasız yanaşaraq öz fəaliyyətini Sovet Azərbaycanının 60 illiyi adına Xankəndi Pedaqoji İnstitutunda davam etdirdi. Azərbaycan xalq təhsili naziri Müslüm Məmmədov Azərbaycan şöbəsi tələbələrinin bir hissəsinin Gəncə, digər hissəsinin isə Naxçıvan pedaqoji institutlarına köçürülməsi qərarına gəldi. İki yerə bölünmə ilə bağlı ciddi etirazından sonra 100 nəfərlik professor-müəllim kollektivi və 1200 tələbə Gəncə Pedaqoji İnstitutuna köçürüldü. Müəllim və tələbələrin Gəncə Pedaqoji İnstitutuna köçürülməsi ilə bağlı Azərbaycan xalq təhsili naziri Müslüm Məmmədov 18 oktyabr 1988-ci ildə qərar verdi.



Bir ilə yaxın Gəncədə fəaliyyət göstərən pedaqoji kollektivin təkidli tələbi ilə şöbənin Şuşaya köçürülməsi qərara alındı. 1989-cu il oktyabrın 25-də pedaqoji kollektiv Şuşaya köçürüldü. Lakin məlum hadisələr-ermənilərin Qarabağda törətdiyi əməllər, bunun da nəticəsində Şuşanın təhlükə altında olması ilə əlaqədar 1992-ci il martın 25-də filialın kollektivi Ağcabədi şəhərindəki 1 nömrəli məktəbin binasına köçürüldü, daha sonra isə 114 nömrəli Texniki Peşə Məktəbinin binasında yerləşdirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli Fərmanı ilə filialın bazasında Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialı təşkil edildi. Ağcabədi filialı 2015-ci ildən ADPU-nun Ağcabədi filialına çevrilib.

## Keşməkeşli yolun sonu

Yuxarıdakı faktlardan göründüyü kimi, Xankəndi Pedaqoji İnstitutu 1969-cu ildən 1988-1990-cı illərə, həmin vaxtdan isə ötən ilədək keşməkeşli yollar keçmişdir. Lakin soydaşlarımız kimi, bu təhsil ocağının də alın yazısında yurda qayıtmaq varmış. Həm də təntənəli şəkildə. Belə ki, Xankəndi şəhərində yerləşən Qarabağ Universiteti təmirdən sonra sentyabrın 20-də həm Dövlət Suverenliyi, həm də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günündə ölkə başçısı İlham Əliyevin iştirakı ilə istifadəyə verildi. Həmin gün Qarabağ Universiteti Xankəndidə bir ulduz kimi parladı. İllərlə oraya-buraya daşınmalara, təzyiqlərə, eziyyətlərə son qoyuldu. Bu təhsil ocağı müasir dizaynı, maddi-texniki bazası ilə azad Xankəndiyə yenidən qayıtdı. Tarix kitabını açıb yeni bir hadisəni səhifələrinə yazdı həmin gün: Zəfərin ərmağanlarını, Xankəndinin yeni dövrünü, ölkənin hər yerindən bura axışıb gələn ilk tələbələri, bu yurd yerindən dünyaya yayılan qüruru, sevinci.

*Ardı Səh. 12*

# Yurduna qayıdan köçkün UNİVERSİTET

Əvvəli Səh. 11

## Təhsil ocağının yeni dövrü başladı

Prezident İlham Əliyev 2023-cü il noyabrın 28-də "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılıb.

Dövlətimizin başçısının birbaşa diqqət və qayğısı nəticəsində qısa müddət ərzində



raq sonrakı işğalı da şərtləndirdi. Məhz bu müqavilələrdən sonra heç vaxt Qarabağ torpağında yaşamayan ermənilər kütləvi surətdə İrandan və Şərqi Anadoludan buraya köçürülmüşdür və bu, həqiqətdir, bu, dəqiq tarixdir. Sadəcə olaraq, Ermənistan və erməni alimləri hər zaman olduğu kimi, tarixi təhrif edərək yeni uydurma tarix yaratmağa çalışırdılar və öz lobbi şəbəkələri vasitəsilə müəyyən dərəcədə beynəlxalq ictimaiyyəti də çaşdırmağa nail olmuşdur.

Dövlət Suverenliyi Günündə yenidən fəaliyyətə başlayan Qarabağ Universiteti haqqında dövlətimizin başçısının fikirləri daha maraqlı və yaddaqalan oldu: Bu gün, eyni zamanda, Qarabağ Universitetinin açılışıdır. Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir.







Universitetdə müasir tədris infrastrukturu yaradılıb. Ali təhsil ocağının bütün ərazisində genişmiqyaslı abadlıq işləri həyata keçirilib. Əsas tədris binasının qarşısındakı park söküllüb, onun yerində 2,3 hektar ərazidə müasir tələblərə uyğun yeni park salınıb.

Bütün tədris binaları əsaslı təmir olunub. Əsas tədris binasının fasadı yenilənib, kommunikasiya xətləri quraşdırılıb, tədris və inzibati otaqlar müasir tələblərə cavab verən müvafiq avadanlıqlarla təchiz edilib. Qarabağ Universiteti hazırda 3 tədris binasında yerləşir. Əsas tədris binasında Pedaqoji, Mühəndislik, Humanitar və sosial elmlər, İqtisadiyyat və Turizm fakültələri, 2-ci tədris binasında İncəsənət fakültəsi, 3-cü tədris binasında isə Beynəlxalq dil mərkəzi fəaliyyət göstərir.

Tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi üçün ilk tədris ilinin müvafiq ehtiyacları nəzərə alınmaqla universitetdə 6 (Fizika, Kimya, Mexatronika, Robototexnika, Kompüter və qrafiki dizayn, Kompüter və proqramlaşdırma) laboratoriya yaradılıb.

Müasir standartlara uyğun şəkildə dizayn edilmiş universitet kitabxanasının xidmətlərindən eyni vaxtda 200 tələbə istifadə edə bilər. Kitabxananın fondunda Azərbaycan, ingilis və rus dillərində 6 mindən çox dərslik və digər ədəbiyyat mövcuddur. Burada tələbələr "Elektron kitabxana" sisteminin geniş imkanlarından faydalana bilərlər.

Bu tədris ilində ölkənin və regionun ehtiyacları, həmçinin beynəlxalq əmək bazarının müasir trendləri nəzərə alınmaqla, ilkin mərhələdə Qarabağ Universitetində kadr hazırlığı 6 fakültədə - Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, İqtisadiyyat, Mühəndislik və Turizm fakültələrində aparılacaq.

Hazırda universitetin 160 əməkdaşı var. Onlardan 60 nəfəri akademik heyətin üzvü, 100 nəfəri isə inzibati və texniki heyətin üzvüdür.

Kadr heyətinin seçimi zamanı Qarabağ Universitetinin fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili üçün vacib olan bilik və bacarıqlara sahib peşəkar mütəxəssislərə üstünlük verilib. Müvafiq vəzifələrin tutulması üzrə vakansiya elanları Elm və Təhsil Nazirliyinin rəsmi saytında və universitetin sosial şəbəkə hesablarında geniş ictimaiyyətin diqqətinə çatdırılıb.

Hazırda peşəkar və təcrübəli yerli və xarici professor-müəllim heyətinin akademik fəaliyyətə cəlb olunması istiqamətində işlər davam etdirilir. Bu prosesdə xaricdə yaşayan azərbaycanlı alimlər və müvafiq dövlət proqramları ilə nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil alan gənclər diqqət mərkəzində saxlanılır.

2024/2025-ci tədris ili üzrə universitetin bakalavriat səviyyəsinə tələbə qəbulu planında ümumilikdə 1120 yer nəzərdə tutulub. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələrinə əsasən 1104 tələbə qəbul olub və qəbul planı 98,5 faiz yerinə yetirilib.

Qarabağ Universitetinə qəbul olan tələbələrdən 101 nəfəri 600-dən, 385 nəfəri isə 500-dən çox bal toplayıb. Ən yüksək nəticə 683,8 balla Hüquqşünaslıq ixtisası üzrə qeydə alınıb. Olimpiada qalibi olan bir abituriyent universitetin Elektrik və elektronika mühəndisliyi ixtisasına müsabiqədənkənar qəbul edilib. Ümumilikdə, Qarabağ Universitetinə I-IV ixtisas qrupları üzrə orta qəbul balı 467,6 təşkil edib.

Bundan əlavə, ilk tədris ilində Qarabağ Universitetində Hüquqşünaslıq, Xarici dil müəllimliyi (ingilis dili), Maliyyə və Mühasibat ixtisasları üzrə SABAH qrupları təşkil olunub. Müxtəlif ali təhsil müəssisələrinin birinci tədris ilini (kursunu) bitirmiş tələbələri arasında keçirilən müsabiqədə uğur qazanan 60 tələbə sözügedən 4 ixtisas üzrə Qarabağ Universitetinin SABAH qruplarında ikinci tədris ilində təhsil alacaq.

Qarabağ universiteti haqqında bütün bu məlumatlara nəzər salmaq yeni dövrə başlayan bu ali təhsil ocağının yaxın gələcəyini göz önünə gətirməyə kifayət edir.

## Bir neçə şəhəri birləşdirən universitet

Qarabağ Universitetinin açılış tədbirində dövlətimizin başçısının dəyərli nitqində bu qədim ərazimizlə, burada fəaliyyət göstərən təhsil ocağı ilə bağlı maraqlı faktları dinlədikcə, dövlətimizlə, Qarabağ torpağını bizə yenidən bəxş edən Ali Baş Komandanımızla və milli ordumuzun əsgər və zabitləri, minlərlə şəhid və qazisi bir daha fəxr etdik: Bura bizim tarixi torpağımızdır və əminəm ki, bunu Azərbaycanda bilməyən yoxdur, dünyada da bunu bilirlər ki, Xankəndi şəhəri qədim Azərbaycan yaşayış yeri olubdur, onun adı onu göstərir - Xanın kəndi. Sadəcə olaraq, yenə də Azərbaycana, xalqımıza qarşı düşmənçilik siyasəti nəticəsində uzun illər ərzində bizim nəzarətimiz burada ya zəif idi, ya da ümumiyyətlə, yox idi. Çünki XIX əsrin əvvəlində bağlanmış üç müqavilə - "Kürəkçay", "Gülüstan", "Türkmənçay" müqavilələri faktiki ola-

Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı. Sonra mən buraya baş çəkdim. Artıq mənim buraya üçüncü gəlişimdir və bütün göstərişlər verildi, Elm və Təhsil Nazirliyi tezliklə bütün lazımi tədbirləri gördü. Deməli olar ki, bina yenidən quruldu. Bu bina sovet dövründə Azərbaycan memarları, inşaatçıları tərəfindən inşa edilmişdi. İşğal dövründə bunu erməniləşdirmək üçün müəyyən işlər görülmüşdü. O əlamətlər də tamamilə silindi. Binanın önü açıldı, gözəl bir park yaradıldı. Master-plan hazırlandı, yəni gələcək illərdə, yəqin ki, növbəti üç ildə yeni tədris korpusları inşa ediləcək. Gözəl yataqxana yaradıldı, bu gün tanış olmuşam. Ən önəmlisi gənclər, yəni tələbələr buraya böyük həvəslə gəlməyə başladılar. İndi mənə məlumat verildi ki, 1200 tələbə var. Ölkəmizin hər bir bölgəsindən tələbə var. Yüksək bal toplayan, o cümlədən 600-dən çox bal toplayan tələbələr bizimlə görüşdə iştirak edirlər və buraya böyük həvəslə gəlmişlər. Müəllim heyəti də formalaşdı. Bilirəm ki, müəllimlər də böyük həvəslə bu işə başlayırlar və ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər.

Bəli, Qarabağ Azərbaycandır və bütün azərbaycanlılarındır. Bütün maddi-mədəni irisi, rüsurslarl, sərvətləri, eləcə də köçkünlüyü tarixin arxivinə yollanan universiteti ilə.

***Mətanət Məmmədova***

# Fransanın vandal və qandal siyasəti

## Fransanın özünü "demokratik" və "insan hüquqlarını müdafiə edən" bir ölkə kimi tanıtsa da müstəmləkələrdəki hadisələr bu iddialarla ziddiyyət təşkil edir

Artıq yüz illər boyunca məcburi qaydada Fransadan asılı vəziyyətdə saxlanılan, sərvətləri talanan, ən adi insan hüquqları belə kobud şəkildə pozulan, ənənələrinə və milli kimliklərinə hörmətsiz münasibət bəslənilən Azsaylı xalqlar daha belə yaşamaq istəmirlər və öz etirazlarını getdikcə artırırlar. Fransa müstəmləkəsi olan Korsikada, Yeni Kaledoniyada, Martinikdə və başqa müstəmləkələrdə insanlar ayağa qalxıb müstəqillik uğrunda mübarizə aparırlar. Gah bu, gah da digər ölkələrində tez-tez "Rədd ol, Fransa!" şüarları səsləndirilir. Aydın görsənir ki, Korsikada, Yeni Kaledoniyada və digər Fransa müstəmləkələrində müstəqillik uğrunda mübarizə güclənir. Eyni zamanda Fransanın polis repressiyaları da şiddətlənir.

Rəsmi Paris yalnız Yeni Kaledoniyada deyil, həmçinin digər müstəmləkələrində də ciddi problemlərlə üzləşir. Karib dənizində yerləşən Martinik adasında da illərdir etirazlar baş qaldırır. Burada da müstəmləkə dövründən qalma qurumlar yerli xalqların haqsızlığa məruz qalmasına səbəb olur. Martinikdə və digər Karib adalarında Fransa idarəçiliyinə qarşı etirazlar əsasən iqtisadi bərabərsizliklər, işsizlik və yerli xalqın öz taleyini təyinetmə hüququnun məhdudlaşdırılması ilə bağlıdır. Bu vəziyyətlərə cavab olaraq, Fransa Müstəmləkələrinin Azadlıq Cəbhəsi və digər müstəqillik tərəfdarları dövlət qurumlarının Matignon və Numea müqavilələrinə sadiq qalmadığını iddia edirlər. Bu müqavilələrə əsasən, Fransa müstəmləkə xalqlarının öz müqəddəratını təyinetmə haqqını tanımalı və onlara daha geniş siyasi və iqtisadi hüquqlar verməli idi. Lakin Fransa hökumətinin müstəmləkə torpaqlarında asayişi qorumaq bəhanəsi ilə zorakı üsullardan istifadə etməsi bu müqavilələrə ziddir.







Fransa Martinik xalqının öz müqəddəratını təyin etmə hüququnu tam təmin etmədiyinə görə BMT Nizamnaməsinin 1(2)-ci maddəsini pozur. BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransa Martinik xalqına daha geniş özünüidarə və ya müstəqillik hüququ verməlidir. BMT-nin 1514 (XV) saylı qətnaməsinə uyğun olaraq, Fransa müstəmləkə sistemini davam etdirdiyi üçün bu qətnamənin müddəalarını pozur. 1541 (XV) saylı qətnaməyə əsasən, Fransa Martinik xalqına müstəqillik və ya geniş daxili özünüidarə hüququ verməк istəmir və onun müddəalarını bilərəkdən pozur.

1946-cı il qanunsuz referendumu nəticəsində Martinik Fransanın dənizaşırı departamenti statusunu alır. Bununla, Martinik beynəlxalq hüququn və yerli əhalinin öz müqəddəratını təyinetmə hüququna zidd olaraq Fransa ərazisinin bir hissəsi kimi rəsmi olaraq tanınır və idarəçilik baxımından Fransa qanunlarına tam şəkildə tabe edilir. 2003-cü il referendumu ilə nəticələr saxtalaşdırılır və Fransanın ərazidə qanunsuz fəaliyyəti daha da gücləndirilir. Ardınca da 2010-cu il referendumu ilə Fransa Martinik xalqının iradəsinə zidd addımlar atır və onların hüquqlarını daha da məhdudlaşdırır. Yerli əhali qondarma referendumun nəticələrinin xalqın tam suverenliyini ifadə etmədiyini vurğulayır. Fransanın Martinikdə keçirdiyi özünəməxsus referendumlar beynəlxalq müşahidəçilər tərəfindən suverenlik hüququnun tam təmin edilməsi baxımından yetərsiz hesab olunur. Yerli əhali referendumun qeyri-obyektiv keçirildiyini və Fransanın təsirinin xalqın həqiqi iradəsini əks etdirmədiyini qeyd edirlər. Martinikdə keçirilən referendumlar beynəlxalq hüquqa görə xalqın öz müqəddəratını tam təyin etmək hüququnu əks etdirmir. Fransa referendumları xalqın iradəsini əks etdirdiyini bildirsə də, Martinik xalqı bu prosesi yetərsiz, qeyri-şəffaf və siyasi manipulyasiyaya açıq hesab edir.

Beləliklə, Fransa müstəmləkə altında olan xalqların problemlərini zorakı üsullarla həll etməyə üstünlük verir. Bu səbəbdən də beynəlxalq ictimaiyyət Fransaya təzyiq göstərməli, hüquq standartlarına hörmət etməsini tələb etməlidir.

Martinik xalqının iqtisadi və sosial ədalət haqları repressiyaya məruz qalır. Fransa hökuməti Martiniki məcbur edir ki, ticarəti ancaq materik Fransası ilə saxlasın, digər ərazilərlə iqtisadi əlaqələr saxlamasın. Bu da adada qiymətlərin hədsiz qalxmasına səbəb olur. Martinikdə olan böyük ticarət şəbəkələri etnik fransızlara mənsub olduğundan onlar bu siyasətdən çoxlu gəlir əldə edir, yerli əhali isə əziyyət çəkir.





Fransa hökumətinin Martinikə ayırdığı subsidiyaların əksəriyyəti buraya məqsədli köçürülmüş ağdərili fransızlara verilir. Adanın sahiblərinə qarşı diskriminasiya edilərək onlar iqtisadi yardımdan məhrum edilirlər. Sosial ədalət prinsipləri yerinə yetirilmir, yerli əhali haqlarından məhrum edilir. Martinik xalqının ədalət və bərabərlik tələbləri repressiv tədbirlərlə boğulur. Bu repressiya müstəmləkəçilik məntiqinin davamıdır. Fransa dövlətinin müstəmləkə siyasəti isə Martinikdəki iqtisadi və sosial ədalətsizliyi artırır.

Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə paytaxtımızda keçirilən beynəlxalq konfranslarda dəfələrlə bu məsələyə toxunulub. Müstəqil Martinik Naminə Ekoloqlar və Demokratlar Hərəkatının nümayəndəsi Claudette Duhamel Bakıda "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda keçirilən beynəlxalq konfransda deyib ki, Fransa Amerika qitəsinə gələndən sonra hər şeyi əlimizdən aldı. Onlar müstəmləkəçilikdən sadəcə öz maraqları üçün istifadə etdilər. Bizə mebel kimi davrandılar, bədənimiz bizə aid deyildi. Ona görə də Fransa müstəmləkəçiliyi müstəmləkə siyasətinin ən ağırıdır.

Çıxışçı qeyd edib ki, Fransa onların mədəni irsini də əllərindən alıb: "Bizim nəinki torpaqlarımızı, mədəniyyətimizi, insani keyfiyyətlərimizi də əlimizdən aldılar. İqtisadiyyatımıza ziyan vuruldu. Tətbiq etdikləri zəhərli maddələr nəticəsində əhalimizin 90 faizi zəhərləndi. Çox adamda xərçəng xəstəliyi yarandı. Fransa bu məsələ ilə bağlı həkimlərə danışmağa icazə vermir".

Onun sözlərinə görə, ölkədə bir faiz olsa belə bütün iqtisadiyyat fransız müstəmləkəçilərin əlindədir: "Xalqımız ölkəni idarə edə bilmir, ölümcül vəziyyətdədir. Kənd təsərrüfatımız var idi, amma artıq keçmişdə qalıb. Onlar torpaqlarımızı zəhərləyib məhv etdilər. Ona görə də ərzağımızı başqa yerdən almalıyıq. Biz idxaldan asılı vəziyyətə gəlmişik. Artıq gəncliyimiz nə edəcəyini bilmir, üfüqdə heç nə görmür. Fransadan qorxurlar, çünki sürgün edilirlər. Kanakda və Polineziyada törətdiklərini bizdə də edirlər, əhalimizi öldürürlər. Onların yerində də fransızları məskunlaşdırırlar, onlar quldarlardır. Mənim nəslimdən olan insanlar böyük bədəl ödəyib, çünki davamlı mübarizə aparmışıq. Bu günün gəncləri isə boykota qərar veriblər, onlar böyük supermarketləri boykot etdilər, nəticədə dəhşətli repressiya baş verdi. Gəncləri həbs etdilər. Ölkədə aparıcıların hamısı ağdərilidir".

Göründüyü kimi, Martinikdə mənzərə ürəkaçan deyil. Martinik xalqının iqtisadi və sosial ədalət haqları vəhşicəsinə basdırılır. Xalqın tələblərini boğmağa yönəlmiş bu dövlət repressiyası müstəmləkə məntiqinin bir hissəsidir. Bütün bunlar Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Rəsmi Paris özünü "demokratik" və "insan hüquqlarını müdafiə edən" bir ölkə kimi tanıtsa da müstəmləkələrdəki hadisələr bu iddialarla ziddiyyət təşkil edir.

Hazırda Fransa dünya nizamında iddia etdiyi yeri tuta bilmir. Ona görə də demokratiyadan dəm vuran rəsmi Paris müstəmləkəçilik siyasətindən imtina etməli və dünyada yaşayan bütün xalqlar azad şəkildə yaşamalı və öz fəaliyyətləri ilə bəşəriyyətə töhfə verməlidirlər. Fransa Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməli və məsuliyyəti etiraf etməlidir. Yelisey Sarayı qlobal sülh üçün müstəmləkə keçmişinə və indiki münasibətə görə üzr istəməlidir.

***Yaqut Ağaşahqızı***

# "Qərbin nə düşünməsinin bir əhəmiyyəti yoxdur"

"27 sentyabr Azərbaycan tarixinə anım günü kimi daxil olub. Əslində 27 sentyabr tarixinə qədər uzun bir yol var. XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəlində Sovet dövləti zəiflədi və son nəticədə süqut etdi. Süqut edən ərəfədə isə 15 müttəfiq ölkədən biri olan Ermənistan tarixi Azərbaycan torpağı olan Qarabağda separatçı qüvvələr növbəti dəfə Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək fikrinə düşdülər. Təbii ki, Sovet dönəmində ermənilər tərəfindən bir neçə buna cəhd olunmuşdu. İstər Sovet, istərsə də Qərb rəhbərliyində Ermənistanın arzusunu müdafiə edən qüvvələr var idi. 1990-cı illərin əvvəllərində də Qərb dövlətlərində olan erməni lobbisi və erməni diasporu bu istiqamətdə xeyli iş gördülər və son nəticədə Azərbaycan torpaqlarının 20 faizini işğal etdi. Bunun nəticəsində 1 milyon azərbaycanlı öz ərazilərdən çıxarılaraq qaçqın və köçkün həyata yaşamağa məcbur oldu. Həmçinin tarixi və mədəniyyət abidələrimiz yerlə-yeksan edildi, məktəblər yandırılaraq sıradan çıxarıldı, insanların evləri dağıldı, əmlakları müsadirə olundu. Bütün bu illər ərzində azərbaycanlıların ən böyük dərdi öz torpaqlarına qayıtmaq oldu". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib. O bildirib ki, 1991-ci ilin oktyabrında Azərbaycan öz dövlət müstəqilliyi haqqında konstitusiya aktını qəbul etsə də, müstəqilliyin şirinliyini dada bilmədi: "Əksinə əhali erməni təcavüzü, daşnaq qüvvələrinin silahlı dəstələri ilə üz-üzə gəldi və dinc, əliyalın əhali zülm gördü. Minlərlə insan məhv edildi. Amma dövrün ən ağrılı hadisəsi o idi ki, siyasi hakimiyyət güclü deyildi. Sovet hakimiyyəti dağıldığı kimi, Azərbaycanda da sabit hakimiyyət yox idi, xalq və iqtidar birləşə bilmədi. Ermənistanda erməni müxalifəti ilə hakimiyyəti Qarabağı işğal etmək üçün birləşdilər. Lakin Qarabağı müdafiə etmək üçün Azərbaycanın milli demokratik ziyalıları ilə Azərbaycan hakimiyyəti birləşə bilmədi. Nəticə etibarilə torpaqlarımız işğal olundu.1993-cü ildə Azərbaycanı vətəndaş müharibəsindən qurtarmaq üçün Azərbaycan hakimiyyəti, xalqının xahişi ilə Ulu Öndər Heydər Əliyev Bakıya gəldi və böyük çətinliklər hesabına Azərbaycanın müstəqilliyini qoruyub saxlaya bildi. Hətta 1994-cü ildə Ermənistanla atəşkəs imzaladı, lakin hər iki tərəf bu razılaşmanın müvəqqəti olduğunu başa düşürdü. Azərbaycan öz tarixi torpaqlarını geri qaytarmaq üçün mübarizə aparırdı, Ermənistan isə Qarabağı işğal etdikdən sonra mənimsəmək üçün əlindən gələni edirdi.Təəssüflər olsun ki, bu mövzuda Qərb dövlətlərinin mövqeyi də ədalətsiz idi. Azərbaycanın haqq işini müdafiə etmir, Ermənistana havadarlıq edirdilər. Beləliklə uzun illər bu mübarizə davam etdi. Ümummilli Lider Heydər Əliyev Azərbaycan həqiqətlərini dünyaya yaymaq üçün əlindən gələni edirdi. Amma təəssüflər olsun ki, nahaqdan düşmən müdafiə edilirdi. Nəhayət 2020-ci ildə artıq Azərbaycan birmənalı olaraq bütün məsuliyyəti üzərinə götürdü. Azərbaycan tərəfi dərk etdi ki, ATƏT-in Minsk Qrupu bu məsələni həll etməyə çalışmır.44 günlük müharibə 27 sentybar tarixində başlandı və bu gün tariximizə anım günü kimi daxil oldu. Artıq dövlət, xalq, xalqın övladı olan əsgər dərk etdi ki, nüfuzlu təşkilatlar və böyük dövlətlər bu məsələdə Azərbaycanı müdafiə etmirlər və heç bir zaman da etmiyəcəklər. Sentybarın 27-dən sonra Azərbaycan 44 gün ərzində dünyanın nə təhdidi, nə təzyiqini, nə də danışıqlarını qəbul etdi. Azərbaycan öz yolu, yeni haqq-ədalət yolu ilə irəlilədi. 2020-ci ilin 44 günlük müharibəsi və 2023-cü ildə bir gün davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini bütün torpaqlarında bərpa etdi. Eyni zamanda Azərbaycan humanistlik göstərərək Qarabağda yaşayan ermənilərə bizim qanunlarımız çərçivəsində burada yaşamağı da təklif etdi.Qərb isə Ermənistandan daha çox narahatlıq keçirərək Azərbaycanın haqq işini, qələbəsini hələ də qəbul etməkdə çətinlik çəkirlər. Erməni tərəfi özü etiraf edir ki, etnik təmizləməyə məruz qalmayıb. Amma Fransa və ABŞ tərəfi hələ də bu məsələni yanlış formada müzakirəyə çıxarırlar. Bu gün də Azərbaycana qarayaxan dövlətlərin sayı kifayət qədərdir. Hətta Ermənistan tərəfi Qərbdən böyük yardım aldığına görə, onların təsiri altına düşürlər. Amma Qərbin nə düşünməsinin bir əhəmiyyəti yoxdur. Çünki Azərbaycan qalib dövlətdir, öz haqq işini apararaq torpaqlarını azad edib, suverenliyini təmin edib".





**Səbinə Hüseynli**

# Özgüvən problemi yaşayan insanlar niyə özlərini günahkar hiss edir?

**"İnsan psixologiyasındakı bir çox problemlər kimi özgüvən problemi də uşaqlıqda yaşananlara bağlı olur". Bu sözləri SİA-ya açıqlamasında "Aura" psixologiya, nitq və fərdi inkişaf mərkəzinin direktoru, psixoloq, psixoterapevt, cinsəl terapist, yaşam və ilişki koçu Xanlar Sətullayev deyib.**



O bildirib ki, körpəlikdən başlayaraq daim valideynlər tərəfindən azarlanan, önəmsənilməyən, sevgi və ilgi hiss etməyən, həmçinin valideyn tərəfindən aşırı dərəcədə qorunan uşaqlar böyüyəndə özgüvən problemi yaşayırlar: "Hələ iməkləməyə başlayan körpə yıxıla-yıxıla tədricən ayağa qalxıb yeriməyə çalışır, lakin hər dəfə yıxılanda kimsə onun əlindən tutub qaldırsa, özünün qalxmağı öyrənməsinə imkan verməsə bu da tədricən uşaqda daim ətrafdan yardım gözləmək vərdişi formalaşdıracaq və böyüdükcə bu həm özgüvən probleminə yol açacaq, həm də tez-tez xəyal qırıqlığı yaşamasına səbəb olacaq. Eyni zamanda daim aşağılanan, fikrinə önəm verilməyən, sevgi hiss etməyən uşaqlar da yaşa dolduqda daim onlarda "mən bacarmaram", "məndə alınmaz" hissi hakim olur. Hətta bu cür insanların sevgisi belə uğursuz olur, sevgisini etiraf edə bilmir, rədd edilə biləcəyi qorxusundan hisslərini aça bilmir, sevgisi uğrunda mübarizə aparmaqdan, itirməkdən qorxur. Eyni zamanda bu cür insanlar tez-tez xəyal qırıqlığına uğrayır. Çünki tez ruhdan düşür, daimi və uzunmüddətli hədəfləri, məqsədləri olmur, günahkarlıq hissi onları tərk etmir, ilk uğursuzluqda həvəsdən düşür, "mənlik deyil", "bilirdim ki, alınmayacaq" kimi firkirlərə təslim olur.

Ümumiyyətlə özgüvən problemi yaşayan insanlar özlərini günahkar hiss edirlər. Onlar hətta inandıqları dinin də gözəl cəhətlərinə deyil, qadağalarına çox bağlanırlar, çünki uşaqlıqda daim qadağalarla üzləşiblər. Halbuki, bütün səmavi dinlərin ana xəttini sevgi və paylaşmaq ruhu təşkil edir. Lakin bu cür insanlar öz yollarını bağlamaq, cəsarətsizliyinə bəraət qazandırmaq üçün hansısa bəhanələr uydurmağa, tapmağa meylli olurlar və tez də taprılar. Çünki nəyi axtararsansa, onu taparsan. Beyin də bu alqoritmə o qədər alışır ki, artıq növbəti bir xəyal quranda onun uğursuz olacağına bəri başdan qərar verir və nəticədə ilk cəhddə alınmayanda ruhdan düşür".

"Bu cür vəziyyətdən çıxış yolu tapmaq üçün ilk növbədə insan özü-özünə kömək etməli, öz imkanlarını dəyərləndirməyi bacarmalıdır. Kiçik hədəflər müəyyənləşdirmək, onlara nail olduqca qarşıya yeni məqsədlər qoymaq, bir növ asandan mürəkkəbə doğru irəliləmək, beyni də uğurlara alışdırmaq lazımdır. Həmçinin heç bir vaxt təslim olmamaq, son nəfəsə kimi inanmaq və mübarizə aparmaq lazımdır. Təslimçilik ruhu hakim olan insan gec-tez məğlub olmağa məhkumdur. Təsəvvür edin ki, müharibəyə başlayan ordu qələbəyə deyil, tezliklə məğlub olacağına inanır. Uğur qazanmağın yolu inam və zəhmətdir. İnsan məqsədində səmimi olarsa və bu yolda zəhmət çəkərsə, bir gün qalib gəlməsə belə çəkdiyi zəhmət onu öz gözündə böyüdəcək, öz qüvvəsinə inamı artacaq. Özünə tənqidi yanaşmaq yaxşıdır, amma hər şeyin artığı fəsad verdiyi kimi özünə tənqidi yanaşma da həddini aşanda insan həm öz gözündə, həm də başqalarının gözündə adiləşəcək, dəyərdən düşəcək. İnsanın öz dəyərini bilməsi üçün təkcə yaradılışına diqqət etməsi kifayətdir. İnsan kimi bu dünyaya gəlmək imkanından məhrum olan milyonlarla rüşeymdən fərqli olaraq Allah sənə həyat bəxş edibsə deməli şanslısan, bu gün yenidən oyandın, dəyər verdiyin kimsə varsa, sevdiyin, yaxud sevdiklərin həyatdadırsa həyatdan zövq almaq üçün səbəbin var. Ümumiyyətlə insan qarışqadan fil düzəldib özünü bədbəxt hiss etmək üçün də, xoşbəxt hiss etmək üçün də kifayət qədər səbəb tapa bilər. Həyatdan zövq almaq, özünü xilas etmək və uğur qazanmaq istəyən insan əlində olanlara şükr etməyi və sevinməyi bacarmalıdır. Belə olduqda mənfi enerji, özgüvənsizlik tədricən aradan qalxacaq, insan nəyə şükr edərsə, nəyi düşünərsə onu da həyatında çoxaldacaq. Pozitiv düşünmək, inanmaq, zəhmət çəkmək, məqsədində ardıcıl olmaq, ruhdan düşməmək, yıxıldıqda qalxmaq və qaldığı yerdən davam etmək, bütün uğurlu insanların həyat düsturu budur" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

# "Qərb Ermənistanın əli ilə bölgəni qanlı qarşıdurmaya salmaq istəyir, amma Azərbaycan buna imkan verməyəcək"

## İqor Korotçenko: "İlham Əliyev Qərbin Cənubi Qafqazda sabitliyi pozmaq cəhdlərinin qarşısını almağa çalışır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər,habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***Kaspi Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Parlamentinin yeni tərkibdə ilk iclasında verdiyi əsas bəyanatları təhlil edib. Müsahibəni oxucularımıza təqdim edirik.***



***- İqor Yuryeviç, dünən Azərbaycan prezidenti ölkənin yeni parlamentində çıxış edib. İlham Əliyev bildirib ki, faktiki olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin öz ərazilərini azad etməsindən və regionda sülhün bərqərar olması üçün imkanların yaranmasından sonra Ermənistanda hələ də revanşizm müşahidə olunur. Qərb isə bu işdə ona kömək edir, silah-sursat verir, Azərbaycan əleyhinə kampaniyalar təşkil edir...***

- Azərbaycan Prezidentinin çıxışı proqram xarakterli olmaqla strateji əhəmiyyət daşıyırdı və çox güclü idi. Regionda hərbi-siyasi vəziyyətin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən məqamlara toxunulub. Azərbaycanın vacib hesab etdiyi amillər müəyyən edilib.





Ermənistana gəlincə, təbii ki, analitiklərin məlumatları onu deməyə əsas verir ki, bu gün onun arxasında Qərbdə təkcə bu ölkəni manipulyasiya etməklə kifayətlənməyən, həm də Cənubi Qafqazda yeni reallıq yaratmağa çalışan əsas geosiyasi oyunçular dayanır. Onlar Azərbaycanın son illər əldə etdiyi uğurları: 2020-ci ildə İkinci Qarabağ müharibəsində Bakının qələbəsinin nəticələrini, 2023-cü ildə Qarabağda erməni separatçı rejiminin mövcudluğuna son qoyan antiterror əməliyyatının nəticələrini zərərsizləşdirməyə çalışırlar.

Bir sıra Qərb dövlətləri, ilk növbədə ABŞ, Fransa, Kanada, o cümlədən Aİ bu gün praktiki baxımdan Cənubi Qafqazda sülhün inkişafına ən fəal və dağıdıcı təsir göstərirlər. Söhbət təkcə Ermənistanı silahlandırmaqdan deyil, həm də Ermənistanın Azərbaycana qarşı mümkün qisasının əsasının qoyulmasından gedir. Bu isə Azərbaycanın diqqətini dinc konstruktiv inkişafa yönəltməsinin qarşısını almaq, Qərbin yardımı ilə onu gərgin vəziyyətdə saxlamaq, yeni ağrı nöqtələri və təzyiq imkanları axtarmaq üçün edilir. Və bu məqsədlə qarşıya qoyulan məqsədlərə nail olmaq üçün gələcəkdə silahlı revanşist Ermənistan daha əlverişlidir.

Ermənistanda revanşist istəklər davam edir, onlar həm siyasi, həm də hərbi dairələrdə mövcuddur. Bu, Azərbaycan üçün təkcə sözdə, bəzi bəyanatlarda deyil, praktiki aspektlərdə reallaşan real təhlükədir. Qərb çətinliklər yaradır. İlk növbədə, Cənubi Qafqazda bu, Ermənistan ordusunun Qərb silahlarının müasir növləri və hərbi texnikası ilə tədricən NATO standartlarına keçidlə yenidən silahlanmasıdır.







Bu, Qərb hərbi müşavirlərinin Paşinyan rejiminə köməyidir ki, onlar açıq-aşkar hərbi quruculuqda və prioritetlərin müəyyən edilməsində, Ermənistanın "güc" maşınının qarşısında duran vəzifələrin icrasında iştirak edirlər. Vəzifə həm də kəşfiyyat xidmətləri vasitəsilə Qərblə Ermənistan arasında məlumat mübadiləsi aparmaqdır. Məlumdur ki, İrəvan və Paris bu sahədə müqavilə bağlayıb. Beləliklə, Ermənistan Azərbaycan, Rusiya, Türkiyə, İran, Gürcüstanla bağlı məxfi məlumatlar əldə edir. Fransa xüsusi xidmət orqanları bu məlumatları əldə edərək erməni tərəfdaşlarına ötürürlər.

Bütün bu amillər, görünür, Azərbaycan prezidenti İlham Əliyevi ölkə üçün davam edən təhdidləri bir daha ortaya qoymağa vadar edib. Ərazi bütövlüyünü bərpa etmiş suveren, özünə güvənən Azərbaycan bu gün bir sıra xarici güc mərkəzləri üçün boğaz sümüyü kimidir. Və bu nəzərə alınmalıdır.

***- Azərbaycan Prezidenti dünənki çıxışında Ermənistan hakimiyyətinin tərəflərin razılaşa bilmədiyi son dərəcə mühüm məqamlar olmadan qısaldılmış variantda Bakıya tezliklə sülh sazişi imzalamağı təklif etməsini qeyri-adekvat adlandırıb və İrəvanın bunu etməklə sülh istəmədiyini göstərir....***

- Qərb və Ermənistan Azərbaycana daha aşağı səviyyədə sülh müqaviləsi tətbiq etmək istəyir. Azərbaycanın əsas təhlükəsizlik tədbirlərinə, eləcə də ərazi bütövlüyünün tanınmasına bu və ya digər dərəcədə məhəl qoymayan sənəd. Beləliklə, Ermənistan və Qərb regionda revanşın əsasını qoyur. Onlar 2020 və 2023-cü illərdə baş vermiş hadisələrdən sonra Azərbaycanın hərbi əməliyyatlarda ikiqat qələbə qazanması ilə bağlı yaranmış vəziyyəti dəyişmək istəyirlər. Qərb və Ermənistan gələcəkdə hansısa hadisələrə görə Azərbaycanın zəifləyəcəyinə ümid edir. Və nəticədə erməni revanşizmindən regionda vəziyyəti dəyişməyə cəhd etmək olar.

***- İlham Əliyev artıq neçə illərdir ki, Ermənistan tərəfinin xarici qüvvələrin dəstəyi ilə təxribatlara hər an hazır olması səbəbindən Azərbaycanın öz ordusunu modernləşdirməyə məcbur olduğunu izah edir... Və bu, təhlükəsizlik baxımından cavab xarakterli məcburi tədbirdir və mütləqdir....***

- Müasir dünyada silahlı qüvvələr dövlətin davamlı inkişafının ən mühüm amillərindən biridir. 30 ilə yaxındır ki, Azərbaycan ərazilərinin 20 faizi Ermənistan tərəfi tərəfindən işğal olunmuşdu. Güclü və müasir ordunun yaradılması Azərbaycana vəziyyəti dəyişməyə imkan verdi.

Və eyni zamanda, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini müstəqil şəkildə həyata keçirərək öz səyləri ilə tarixi ədaləti bərqərar etdi.

***- Dünən BMT Baş Assambleyası çərçivəsində keçirilən sammitlərin birində Ermənistanın baş naziri eyham vurdu ki, biz yeni dinc gələcək qurmalıyıq, qonşularımızla sülh şəraitində yaşamalıyıq. Erməni KİV-ləri ənənəyə uyğun olaraq Azərbaycan prezidentinin Milli Məclisdəki çıxışını Ermənistan üçün əlverişsiz olan mühüm izahedici məqamları buraxaraq özünəməxsus şəkildə təqdim etməyə başlayıb. Paşinyanın BMT Baş Assambleyasındakı güzgü çıxışından nə gözləyirsiniz?***

- Ermənistan hakimiyyəti bu gün sülh pərdəsi altında öz mövqeyini həm ölkə daxilindəki insanlara, həm də beynəlxalq ictimaiyyətə təqdim edir. Bütün bunlar ona görədir ki, Azərbaycan 2020-ci ildə, sonra isə 2023-cü ildə Ermənistandan hərbi dişləri çıxarıb. Əgər bu edilməsəydi, bu gün biz Ermənistanda daha da aqressiv və qana susamış, hələ də Azərbaycan ərazilərini əlində saxlayan, heç bir sülh danışıqları haqqında düşünməyən "döyüş maşını" görərdik. Azərbaycan öz gücünə və hərbi potensialına arxalanaraq müasir tarix yazmağı göstərdi və sübut etdi. Məhz buna görə də gələcəkdə Ermənistanın və onun himayədarlarının hər hansı təcavüzkar planlarının qarşısını almaq üçün bu potensialın yaradılması və təkmilləşdirilməsi davam etdiriləcək. Kənar oyunçular Ermənistanın "əli" ilə bölgəni yenidən xaosa məruz qoyaraq, qanlı qarşıdurmalara salmaq istərdilər. Amma Azərbaycan buna imkan verməyəcək.

***Tərcümə - Elçin Bayramlı***

# “Hər kəs ailə qura bilməz”




## SOSİOLOQ İZAH ETDİ

**“Uşaqların tərbiyəsi ilə bağlı məsələ hər zaman müzakirə mövzusu olub. Qədim zamanlardan indiyə qədər müxtəlif yanaşmalar mövcud olub. Artıq çağdaş dövrün özünün tələbləri var, fərqli cəmiyyətlərdə isə fərqli tərbiyə üsulları var. Bu tərbiyə üsullarının içərisində daha sərt olanları da olub. Zaman-zaman uşaq tərbiyəsi ilə bağlı yanaşmalar dəyişdi və bununla artıq məktəblər, təhsil verən mərkəzlər məşğul olmağa başladılar”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib.**

O bildirib ki, uşaqların tərbiyəsi ilə məktəbdən öncə ailə məşğul olmalıdır: ”Valideynlər tərbiyə üsulu seçərkən diqqətli olmalı, müxtəlif araşdırmalar aparmalıdırlar. Uşaqların tərbiyəsində fiziki cəzalardan istifadə etmək adekvat deyil. Bu birbaşa olaraq uşaqların özgüvənini aşağı salır, onlarda qərar qəbul etmə qabiliyyətini itirir. Uşaqlar daha çox icraçı kimi böyüyür, onlarda lider keyfiyyətləri zəifləyir.

Uşaqlara daha müasir, səmimi formada tərbiyə vermək məqsədəuyğundur. Belə ki, uşaqların özgüvəni formalaşmalı, şəxsiyyət kimi inkişaf etməlidirlər. Buna görə də uşaqlara öz fikirlərini ifadə etməyə şərait yaratmaq lazımdır. Həmçinin uşaqları həyatın reallıqları içərisində böyütmək lazımdır ki, böyüdükdə reallıqlarla üzləşmək çətin olmasın. Həmçinin uşaqların tərbiyəsində valideyn və məktəblə yanaşı, yaşadığımız cəmiyyət də mühüm rol oynayır. Buna görə də çalışmaq lazımdır ki, sosial şəbəkələrdə sağlam paylaşımlar edilsin ki, uşaqlar da düzgün tərbiyəyə yiyələnə bilsinlər.

Fiziki cəzalar düzgün deyil, bu uşaqlarda travmaya səbəb olur. Amma uşaqları yaxşı əməllərinə görə mükafatlandırmaq, pis əməllərinə görə isə sevdikləri nələrdənsə bir müddətlik məhrum edərək cəzalandırmaq olar. Ailə qurmazdan öncə tərəflərin psixoloji testlərdən keçməsi mühümdür. Bu gələcəkdə sağlam ailə qurulması üçün çox vacibdir. Hər kəs ailə qura bilməz, bunun üçün sağlam mühit olmalıdır”.

*Səbinə Hüseynli*


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Qızılın qiyməti 2 700 dollara yaxınlaşır

Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 0,23% artaraq 2 683,2 ABŞ dollarına bərabər olub. SİA birja məlumatlarına istinadən xəbər verir ki, COMEX-də gümüşün bir unsiyasının qiyməti də 0,56% azalaraq 32,25 ABŞ dollarına bərabər olub.



## "Qızıl top"u alsa, "Nike" ona qızılı buts hazırlayacaq

Bir gün əvvəl mediada 2024-cü il üçün ”Qızıl top”u kimin qazanacağı ilə bağlı söz-söhbətlər yayılmışdı. SİA xəbər verir ki, nüfuzlu mükafatın ”Real Madrid”in hücumçusu Vinisiusa veriləcəyi güman edilir. Şayiələrə görə o, qələbə barədə artıq ”France Football” tərəfindən məlumatlandırılıb. Bu münasibətlə siması Vinisius olan ”Nike” oyunçu üçün xüsusi butslar buraxacaq. Çəkmələr qızılı rəngdə hazırlanacaq. ”Footy Headlines” portalı artıq yeni elementin təxmini şəklini dərc edib.



Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700